www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 aprel 2017-ci il Cümə № 83 (6697) Qiyməti 60 qəpik

## Xəbər

**Bakıda keçmiş məhkum polislərin üstünə kimyəvi məhlul atdı, sonra özü içib öldü**

yazısı səh.14-də

## Gündəm

**"Yanan bina işi"ndə sensasion gəlişmə- məhkəmə nəyə yenidən baxacaq?**



Bakı Apelyasiya Məhkəməsi 15 nəfərin ölümü ilə nəticələn yanğınla bağlı məhkəmənin yenidən keçirilməsinə qərar verib; cinayət işi üzrə məsuliyyətdən kənarda qalanların da cəzalandırılmasına hazırlıq gedir...?

yazısı səh.10-da

**Aprelin 26-da prokuror Əli İnsanova cəza istəyəcək**

yazısı səh.12-də

**Mühacir biznesini araşdırmaq üçün ortaq komissiya ideyası-müxalifətdən reaksiyalar**

yazısı səh.11-də

**Bankların problemli kredit fırıldağı**

yazısı səh.14-də

**"İntihar baharı" - ölkədə canına qıyanların sayı artır**

yazısı səh.11-də

**Tofiq Zülfüqarov ermənilərin internet hiyləsini üzə çıxardı**

yazısı səh.3-də

**Qarabağ - beynəlxalq siyasətin alver predmeti kimi-indi də Fransada**

yazısı səh.5-də

**Sabiq MTN-çı QHT-lərin terrorçularla əlaqələrindən danışdı**

yazısı səh.4-də

**ABŞ İranla nüvə sazişini pozur-region yenə qaynayacaq**

yazısı səh.7-də

**İlhamə Quliyevanın sevimli gödəkçəsi girovluqda-araşdırma**

yazısı səh.13-də

# Baş liftçini həbsə götürəcək sensasion faktlar

## 400 MİN DOLLARA TOY EDƏN VƏZİFƏLİ MƏMUR "TROS OĞRUSU" ÇIXDI - SƏRVƏTİN QAYNAĞI BİLİNDİ

Övladının 400 min dollarlıq toyu ilə gündəmə gələn Bakı Lift İdarəsinin rəisi haqqında heyrətamiz məqamlar açıqlanıb; onun tabeliyində çalışan mütəxəssis hər şeyi açıqladı; dövləti talayıb, iqtidarı aldadıb...




yazısı səh.6-da

# Kreml separatizmə dəstək siyasətini dəyişir - "Lavrov Qarabağda"

Rusiya baş diplomatının Abxaziya səfərində güdülən əsas məqsəd; Moskva Bakının da götürməli olduğu mesajla nə demək istəyir? "Bloomberg" Kremlin strateji hədəfindən yazdı: "Rusiya tədrici hərəkət edir..."

yazısı səh.9-da



**Nazir müavininin milyonçu xanımı "Forbes"in siyahısında-Zümrüd Rüstəmova kimdir?**

yazısı səh.10-da



*Novruz Məmmədovdan ABŞ siyasətçisinə mesaj:*

**"Sübut elə ki, mənim ABŞ-da iki mənzilim var, birini sənə verəcəm"**

yazısı səh.4-də



*Əflatun Amaşov:*

**"Bəxtimdən şikayətçi deyiləm"**

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017



## Tramp, Ərdoğan və Putin- dünyanın ən nüfuzlu liderləri

**ABŞ-da işıq üzü görən TIME jurnalı 2017-ci il üzrə dünyanın ən nüfuzlu insanlarının siyahısını dərc edib. Siyahıda bir sıra dünya liderləri və onların məsləhətçiləri, musiqiçilər və kino ulduzları, dünya səviyyəli idmançılar yer alıb.**

"Report" xəbər verir ki, dünya liderindən siyahıya ABŞ prezidenti Donald Tramp, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya prezidenti Vladimir Putin, İngiltərə baş naziri Tereza Mey, Filippin prezidenti Rodriqo Duterte, Roma Papası Fransisk və s. daxil edilib.

Bu il siyahıya ilk dəfə Donald Trampın iki müşaviri - qızı İvanka və onun həyat yoldaşı Cared Kuşner də daxil olub.

## Ermənistan cəbhəyə göndərdiyi hər əsgərə 10 min dollar vəd edir

**Ermənistan Müdafiə Nazirliyi hərbi xidmətlə bağlı yeni təklif verib. Modern.az bildirir ki, ictimai müzakirələrə çıxarılan təklif bir neçə proqramdan ibarətdir. Təklifə əsasən, təmas xəttinə göndəriləcək şəxslər orduda 3 il müddətində xidmət edəcəklər. Xidmətlərinin 6-cı ayından başlayaraq onlar 1+1+2 sisteminə keçəcəklər. Yəni 1 həftə evdə olacaqlar, 1 həftə döyüş növbəsinə hazırlıq keçəcəklər və 2 həftə ön xətdə xidmət edəcəklər. Bu qanun sayəsində erməni hərbçi 3 illik xidmətinin 7 ayını evində keçirəcək.**

3 illik hərbi xidmət müddəti başa çatdıqdan sonra isə hərbçiyə 5 milyon dram (10 min dollar) pul ödəniləcək. Həmin pulu o yalnız 3 istiqamətdə - ev almağa, mini-ferma tikməyə, yaxud təhsilini davam etdirməyə xərcləyə bilər.

## Azərbaycanda nümunəvi qəbiristanlıqlar yaradılır

**Azərbaycanda qəbiristanlıqlar, məzar yerlərinin qiymətləri barədə yeni sənəd hazırlanıb. Bu barədə modern.az-a Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib. Komitə sədri deyib ki, yaxın günlərdə nümunəvi qəbiristanlıqların yaradılması ilə bağlı ölkə prezidentinin ya sərəncamı olacaq, ya da sənəd qanun layihəsi şəklində Milli Məclisdə müzakirəyə çıxarılacaq.**

"Bu sənəddə müxtəlif məsələlər nəzərdə tutulub. Sənədə görə, böyük yerlərdə qəbiristanlıqlar dövlətin balansında olacaq. Müəyyən yerlərdə isə, məsələn, kəndlərdə bələdiyyələrin balansına verilməsi nəzərdə tutulur. Sənəd tam hazırdır, bütün yerlərdən də rəylər alınıb. Yaxın günlərdə ya Milli Məclisdə müzakirəyə çıxarılacaq, ya da cənab prezidentin bununla bağlı sərəncamı olacaq", - deyə deputat qeyd edib.

**Siyavuş Novruzovun sözlərinə görə, sənəddə göstərilib ki, qəbiristanlıqlar, məzar yerləri, başdaşları hər yerdə eyni cür və eyni qiymətə olmalıdır:** "Qiymət də elə yüksək deyil. Sənəddə nümunəvi qəbiristanlıqların idarə olunmasına, onların qorunmasına, təmiz saxlanılmasına diqqət ayrılıb. Ritualların yerinə yetirilməsi üçün qəbiristanlıqlar təhsilli şəxslərlə təmin olunacaq. Bilirsiniz ki, bu gün qəbiristanlıqlarda mollaların çoxu heç ərəb dilini bilmir".

Deputat onu da əlavə edib ki, nümunəvi qəbiristanlıqlar bütün respublikanı əhatə edəcək.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Milli Məclisi tanıyırlar, kişidilərsə, gəlsinlər"

**"Mənim fikirlərim kontekstdən çıxarılıb. Feysbuka daxil olan hamını avara adlandıra bilmərəm. Demişəm ki, onu-bunu tənqid edənlər, boş-boş vaxt keçirənlər avaradırlar".**

AzNews.az xəbər verir ki, bunu azvision.az-a Azərbaycan Sosial Demokrat Partiyasının sədri, deputat Araz Əlizadə haqqında səslənən fikirlərə münasibət bildirərkən deyib.

"Mənə sual verdilər ki, sizi tənqid edirlər. Mən də dedim ki, bu, tənqid deyil, söyüşdür. Onu yazanlar, səhərdən axşama qədər vaxtını orada keçirənlərin hamısı avaradır. Yəni ümumilikdə hamını avara adlandırmamışam. Mənim oğlum, həyat yoldaşım da feysbuka girir. Ona görə mən deyə bilmərəm ki, orada olanların hamısı avaradır. Amma vaxtını feysbukda keçirənlər, 24 saat orada olanlar avaradır. Bununla bağlı Milli Məclisin İntizam Komitəsinin məni cəzalandırmasına gəlincə, elə bir şey ola bilməz. Ümumiyyətlə, fikrinə görə insanı necə cəzalandıra bilərlər?"-deyə A.Əlizadə vurğulayıb.



**Deputat sosial şəbəkələrdə onu söyənlərə sərt cavab verib:** "Sözləri varsa, üzümə desinlər. İş yerimi, Milli Məclisi tanıyırlar. Gəlsinlər, həmin sözləri üzümə desinlər. Əgər kişidilərsə, gəlsinlər. Bizdə məhəllədə belə idi. Döyülən cavab verə bilməyəndə qaçıb söyüş söyməyə başlayırdı. İndi bunlar da sözlərini üzümə deyə bilmirlər, facebooka girib məni söyürlər".

**A.Əlizadə qeyd edib ki, ona söyüş söyənləri məhkəməyə vermək fikrində deyil:** "Mən heç kimdən şikayət edən deyiləm. Sözümü kişi kimi deyirəm. Qoy, onlar da yazsınlar ki, Arazı belə-belə söymüşəm. Ünvanım da filandır.

Onlar kimdir axı? Mən sözümü ağıllı insanlara deyirəm. Səfeh insanlar sözümü dərk etməsələr daha yaxşıdır. İndi onlar söyüş söyürlər? Söysünlər. Belə bir məsəl var ki, səfeh insanın söyüşünün özü tərifdir".

## Ordumuzun genişmiqyaslı təlimləri davam edir

**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi icra olunub.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, plana müvafiq olaraq bu mərhələdə artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya, xüsusi növ qoşunlar, eləcə də digər birləşmələr silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Müasir ümumqoşun döyüşünün prinsiplərinə riayət edilməklə, mürəkkəb relyef şəraitində və şərti düşmənin ehtimal olunan fəaliyyəti nəzərə alınaraq qoşunların, eləcə də idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib.

Müxtəlif poliqonlarda və müasir avadanlıqla təchiz edilmiş təlim sahələrində döyüş atışları, bölmələrin və atəşin manevrləri yerinə yetirilib.

## Mayda neçə gün iş olmayacaq?

**May ayında 9 May-Qələbə günü və 28 May-Respublika günü ilə əlaqədar qeyri-iş günlərinin sayı məlum olub.**

APA-nın məlumatına görə, bu il mayın 9-u çərşənbə axşamına, mayın 28-i isə bazar gününə təsadüf edir.

28 may bazar gününə təsadüf etdiyi üçün 29 may qeyri-iş günü sayılacaq.

Beləliklə, may ayında iki gün qeyri-iş günü olacaq.




## Dövlət İmtahan Mərkəzi abituriyentlərə müraciət edib

**Dövlət İmtahan Mərkəzi abituriyentlərə müraciət edib. DİM-dən APA-ya verilən xəbərə görə, abituriyentlərin çoxsaylı müraciətlərini və ali təhsil müəssisələrinin I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının bu ildən etibarən iki dəfə keçirilməsini nəzərə alaraq, 4-22 may tarixlərində bəzi kateqoriyadan olan abituriyentlər üçün elektron ərizə qəbulu sistemi yenidən aktiv olacaq.**

Belə ki, əvvəlcədən elan olunduğu kimi, elektron ərizələrində ali təhsil müəssisələrinin I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarının birincisində iştirak etmək istədiyini qeyd etmiş abituriyentlər ikinci imtahanda da iştirak etmək istədikləri halda qeyd olunan tarixlərdə qeydiyyatdan keçməlidirlər.

Təsdiq olunmuş elektron ərizələrində ali təhsil müəssisələrinin I-IV, V ixtisas qruplarına və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) aid üç bənddən birini və ya ikisini seçən abituriyentlərə digər bənd(lər)i də seçməyə icazə veriləcək.

16 mart - 11 aprel tarixlərində elektron ərizə qəbulunda iştirak etməyən abituriyentlər isə (həm cari, həm də əvvəlki illərin məzunları) ərizələrini doldurub təsdiq etməklə (və ya DİM və onun regional bölmələrində yaradılacaq SQK-da təsdiq etdirməklə) ali təhsil müəssisələrinin I-IV (yalnız ikinci imtahanda iştirak etmək şərtilə), V ixtisas qrupları və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) ərizə təqdim edə biləcəklər.

## Prokuror "Lotu Quli"nin yeznəsinə hansı cəzanı istəyəcək?

**Hazırda həbsdə olan kriminal aləmdə "Lotu Quli" kimi tanınan Nadir Səlifovun bacısının əri Vidadi Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi davam edib. Lent.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı başa çatıb. Prokuror çıxış üçün vaxt istəyib.**

Məhkəmə prosesi aprelin 26-na təyin edilib.

Qeyd edək ki, V. Hüseynov 2016-cı ilin aprel ayının 30-da Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Bölməsinin əməkdaşları tərəfindən şübhəli şəxs qismində saxlanılıb. Saxlanılarkən onun üzərindən 12,360 qram heroin aşkarlanıb. V. Hüseynovun barəsində Cinayət Məcəlləsinin (CM) 234.4.3cü (külli miqdarda narkotik vasitə) maddəsi ilə cinayət işi başlanılıb. V. Hüseynov hazırda həbsdə olan və "Lotu Quli" ləqəbi ilə tanınan kriminal avtoritet Nadir Səlifovun bacısının həyat yoldaşıdır.

## Mehman Hüseynov əməliyyat olunacaq

**Blogger Mehman Hüseynov əməliyyat olunacaq. Bu haqda modern.az-a onun hüquqlarını müdafiə edən Elçin Sadıqov məlumat verib.**

O bildirib ki, müvəkkili cəzaçəkmə müəssisəsinə köçürülməyib: "Mehman hələ cəzaçəkmə müəssisəsinə köçürülməyib, indi əlaqə saxladım. Bir neçə gün əvvəl Mehman Hüseynovu Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsindən gələn həkimlər müayinə ediblər və bildiriblər ki, cərrahi əməliyyata ehtiyacı var. Deyiblər ki, M.Hüseynov əməliyyat olunması üçün vəkili yenidən müraciət etməlidir".

Vəkil Mehman Hüseynovun əməliyyat olunması üçün yenidən müraciət göndərdiyini açıqlayıb.

Xatırladaq ki, Nəsimi RPİ-nin rəisi Musa Musayev M.Hüseynovun Cinayət Məcəlləsinin 147.2-ci (böhtan, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə məsuliyyətə cəlb olunmasını və cəzalanmasını istəmişdi.

Məsələ burasındadır ki, Mehman Hüseynov yanvarın 9-da axşam saatlarında saxlanmışdı. Polisin qanuni əmrinə tabe olmamaqda günahlandırılan blogger bir gün sonra 200 manat cərimə edilməklə sərbəst buraxılmışdı.

Yanvarın 11-də M.Hüseynovun vəkili onun bədənində xəsarət yerlərinin və paltarında qan ləkələrinin əks olunduğu fotoları yaymışdı.

Ancaq Daxili İşlər Nazirliyi bloggerə polisdə işgəncə verilməsi ilə bağlı deyilənləri əsassız sayıb. Nəsimi RPİ-nin rəisi Musa Musayev M.Hüseynovu polisə böhtan atmaqda təqsirləndirərək, məhkəməyə vermişdi.

Məhkəmənin hökmü ilə Mehman Hüseynov 2 il müddətinə azadlıqdan məhrum edilib.

## Biləsuvarda sürücü sükan arxasında öldü, maşın ağaca çırpıldı

**Biləsuvar rayonunda yol-nəqliyyat hadisəsi baş verib. "Report"un məlumatına görə, rayonun Xırmandalı kənd sakini Abbas Əliyev idarə etdiyi "VAZ-2106" markalı avtomobillə hərəkətdə olarkən qəfildən ürəyi tutub və sürücü sükan arxasında ölüb. Nəticədə idarəetmədən çıxan avtomobil yolun kənarındakı ağaca çırpılıb.**

Məlumata görə, A.Əliyev ürək xəstəliyindən əziyyət çəkirmiş.




# İslam Həmrəyliyi Oyunlarına həsr olunmuş konfrans keçirildi

## Prezident Administrasiyası və Mətbuat Şurasının təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycanın İslam aləminə bir nümunə olduğu vurğulandı

**Aprelin 20-də Beynəlxalq Mətbuat Mərkəzində Prezident Administrasiyası (PA) və Mətbuat Şurasının (MŞ) birgə təşkilatçılığı ilə Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edilməsi və İslam Həmrəyliyi Oyunlarının İslam ölkələri arasında mədəni əlaqələrin möhkəmləndirilməsi mövzusunda konfrans keçirilib.**

Musavat.com-un konfransda iştirak edən əməkdaşı xəbər verir ki, tədbiri giriş sözü ilə MŞ sədri, millət vəkili Əflatun Amaşov açaraq, qısa müddət sonra Azərbaycanda keçiriləcək bu möhtəbər tədbirin yerli və beynəlxalq medianın gündəmində olacağını bildirdi. Onun sözlərinə görə, tolerant dövlət olan Azərbaycanda ayrı-ayrı dinlərə, məzhəblərə sitayiş edən insanlar bərabər şəkildə yaşayırlar. MŞ sədri dedi ki, Azərbaycanda ayrı-ayrı dinlərə mənsub olan insanlar heç bir fərqə məruz qalmadan yaşayırlar və Azərbaycanda İslam bərqərar olduqdan sonra bu dəyərlərə xüsusi önəm verilib.

**PA-nın ictimai-siyasi məsələlər şöbəsinin əməkdaşı Bəhruz Həsənov isə dedi ki, VII - VIII əsrlərdən Azərbaycanda İslam dini yayılmağa başlanılıb. Təsadüfi deyil ki, dünyadakı ən qədim məscidlərdən biri məhz Azərbaycanda, Şamaxı şəhərindədir. Onun tarixi 7-ci əsrə dayanır. B. Həsənovun sözlərinə görə, zaman-zaman Azərbaycanda İslam dini arasında təfriqə salmaq istəyən qüvvələr olsa da, onlar buna nail ola bilməyiblər. PA rəsmisi vurğuladı ki, dünyanın bir sıra ölkələrində bəzən eyni dinin ayrı-ayrı məzhəblərinin düşmənçilik etdikləri müşahidə olunur:** "Amma Azərbaycanda bu cür hallar baş vermir. Ölkəmiz İslam aləminə bir nümunədir. İslam dünyasının bu amilə ehtiyacı var. Bəzi qüvvələr İslam dinini terrorçuluqla eyniləşdirirlər. Burada Avropa ölkələri rol alır. Buna görə də İslam dünyasının həmrəyliyə ehtiyacı var. İslam dini ilə bərabər, İslam mədəniyyəti də Azərbaycanda təşəkkül tapıb. İslam mədəniyyətinə Azərbaycan mədəniyyəti töhfələrini verib. Əsrlər boyu Azərbaycanda tolerant, multikultural dəyərlər mövcud olub".

B.Həsənovun sözlərinə görə, Azərbaycanda İslam dini daxilində məzhəblərarası şiddətin olmaması xalqımızın xoş niyyətinin göstəricisidir. PA rəsmisi məlumat verdi ki, hazırda Azərbaycandakı 2166 məsciddən 306-sı tarixi abidə kimi qorunur və bu da onu göstərir ki, Azərbaycan nümunəvi İslam modelini ortaya qoya bilib. Bəhruz Həsənov sovetlər dönəmindən bir rəqəm səsləndirməklə, çağdaş Azərbaycanda İslamın dininin vəziyyətini ortaya qoyub. O dedi ki, Sovet İttifaqı dönəmində Azərbaycanda cəmi 17 məscid mövcud olub: "Onların da bir çoxu heç normal fəaliyyət göstərmirdi..."

Bəhruz Həsənov bir mühüm məsələyə də toxunub. O deyib ki, bu gün Səudiyyə Ərəbistanı, Pakistan Dağlıq Qarabağ məsələsinə görə Ermənistanı dövlət kimi tanımır, Türkiyə isə bu ölkə ilə heç bir əlaqə saxlamır. Lakin bəzi müsəlman ölkələri Ermənistanla müxtəlif sahələrdə əlaqələr saxlayır ki, bu da İslamın ruhuna ziddir.

Bəhruz Həsənov qeyd edib ki, Azərbaycan İslam dünyasında böyük nüfuza malikdir. Azərbaycan İslam dəyərlərinə ən yüksək səviyyədə önəm verən ölkələrdən biridir. Bu gün İslam dünyasının birliyə, mütəşəkkilliyə daha çox ehtiyacı var. Bu baxımdan, prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi xüsusi önəm kəsb edir.





**Tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev isə IV İslam Həmrəyliyi Oyunlarında bütün ölkələrin iştirak edəcəyini bildirdi. Onun dediyinə görə, yarışlar I Avropa Oyunları zamanı istifadə edilmiş 16 idman obyektində baş tutacaq:** "Bu günə qədər Azərbaycanda yüzlərlə müxtəlif statuslu yarışlar keçirilib. Bu tədbirlər içərisində həm Azərbaycan tarixi, həm də dünya idman tarixi üçün önəmli tədbir Avropa Oyunları oldu . Bu, bizim üçün böyük sınaq idi və biz bu sınaqdan çox uğurla çıxdıq. Azərbaycanın idman ölkəsi adlanmasına tam haqqı var. Dövlət siyasəti çərçivəsində gənclərimizin fiziki inkişafı ən əsas istiqamətlərdən biridir. Gənclərin hərtərəfli inkişafı üçün geniş şərait yaradılıb və idman infrastrukturu formalaşdırılıb".

**İ.Babayev inandığını deyib ki, Avropa Oyunları zamanı göstərdiyimiz uğurlar yenidən təkrarlanacaq. Onun sözlərinə görə, bu, eyni zamanda gənclərimiz arasında könüllülük hərəkatının inkişafına da töhfə verəcək:** "8 min könüllümüz hazırlanıb. Hər bir yarışmada könüllü hazırlayanda onların qarşısına vəzifə qoyuruq ki, siz Azərbaycanın gənc səfirlərisiz. Bura gələnlər ilk dəfə Azərbaycanın simasında sizi görəcəklər".

**"İslam Həmrəyliyi Oyunlarının işıqlandırılması üçün 1000-dən artıq yerli və xarici mətbuat orqanı Azərbaycan Xarici İşlər Nazirliyinə müraciət edib, onların əksəriyyəti akkreditasiyadan keçirilib". Bunu isə Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirdi. Onun dediyinə görə, jurnalistlərin 200-ə qədəri ərəb ölkələrini əhatə edir:** "Xarici İşlər Nazirliyi İslam Həmrəyliyi Oyunları ilə bağlı üzərinə düşən işləri görür. Bilirsiz ki, burada əsas iş viza məsələsidir. İslam Həmrəyliyi Oyunlarının akkreditasiyadan keçən iştirakçıları, azarkeşləri ölkəyə vizasız gələ biləcəklər. Bu il Azərbaycanın İslam ölkələri ilə diplomatik əlaqələrinin 25 illiyi qeyd olunur. Müstəqillik əldə etdikdən sonra ölkəmiz İslam ənənələrinə sadiq qalaraq bir sıra addımlar atdı. Bu baxımdan, bir sıra beynəlxalq təşkilatlara qoşuldu. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərkən ərəb ölkələri birmənalı olaraq Azərbaycana dəstək verdi. Bu da mövcud əlaqələrin göstəricisidir".

**H.Həsənov dedi ki, oyunlar çərçivəsində asan viza sistemi tətbiq olunub. İslam Oyunları çərçivəsində isə bu sistem daha da sadələşdirilib:** "Bu il Azərbaycanın İslam ölkələri ilə diplomatik əlaqələrinin 25 illiyi qeyd olunur. Müstəqillik əldə etdikdən sonra ölkəmiz İslam ənənələrinə sadiq qalaraq bir sıra addımlar atdı. Bu baxımdan, bir sıra beynəlxalq təşkilatlara qoşuldu. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərkən ərəb ölkələri birmənalı olaraq Azərbaycana dəstək verdi. Bu da mövcud əlaqələrin göstəricisidir".

Millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib ki, IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın milli maraqlarının təmin olunmasına xidmət edəcək.

**Millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə dedi ki, İlham Əliyev ilklərə imza atmağı sevir. Onun sözlərinə görə, ilk dəfə Azərbaycanda keçirilən Avropa Oyunları zamanı yeni standartlar müəyyənləşdirildi. Bundan sonra ölkəmizdə multkulturalizm ili elan olundu:** "Balaca bir Azərbaycanın böyük bir qəlb sahibi olması nümunəsi dünyaya göstərildi. İlk dəfədir ki, ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçirilir. Öz müstəqilliyinin yaşı 30-a çatmayıb, amma İslam dövlətlərini bir-birinə həmrəy olmağa çağırır. Eyni zamanda bunun reallaşdırılmasının əyani üsulu da var. İslam dövlətləri başçıları, liderləri bura gələcək və Azərbaycan körpüyə çevriləcək. Əlaqələr qurulacaq, danışıqlar keçiriləcək. Azərbaycanın belə tədbir keçirməyə həm maddi imkanı, həm də mənəvi haqqı var".

❑ **Sevinc TELMANQIZI**
**Fotolar müəllifindir.**

# Sabiq nazir ermənilərin internet hiyləsini üzə çıxardı

## Osman Gündüz: "Erməni lobbisinin və müəyyən maliyyə qurumlarının bu məsələdə əli var"

**Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov birinci vitse-prezident Mehriban Əliyevaya müraciət ünvanlayıb. Müraciətində T. Zülfüqarov virtual məkanda ermənilərin yalan siyasətinə diqqət çəkib.**

Z. Zülfüqarov bildirib ki, Ermənistan dövlətinin dəstəyi ilə internet məkanının bütün seqmentləri yalan və saxtalaşdırılmış məlumatlarla doldurulur:

"Axtarış sistemlərinin manipulyasiya effektindən (Search Engine Manipulation Effect, SEME) və axtarış zamanı "təklif" effektindən (Search Suggestion Effect,SSE) məharətlə istifadə edərək, ermənilər axtarış nəticələrinin qeyri-obyektiv formada sıralanmasına nail olurlar.

Müstəqil elmi araşdırmalar sübut edir ki, axtarış nəticələrinin birinci səhifədə sıralanması (SEME), eləcə də axtarış sözünün çap edildikdə "təklif" və "avtomatik əlavə etmə" (SSE) sistemləri nəticələrə böyük təsir göstərir və istifadəçilərin fikri ilə manipulyasiya edilməsi məqsədilə istifadə oluna bilər.

Nəticə olaraq, dünyanın istənilən yerində istifadəçi tərəfindən axtarış sisteminə "Azərbaycan", "erməni-Azərbaycan münaqişəsi", "Qarabağ", "Xocalı" və digər "teq"lər daxil edildikdə, monitorda görünən ilk axtarış nəticələrin əksəriyyəti ermənilər tərəfindən saxtalaşdırılmış "faktlar", "copy-paste" mətnlər və ya videomateriallar olur.

Məsələn, axtarış sistemində


Tofiq Zülfüqarov

"Karabakh" sözü çap edildikdə, Google "Karabakh war" səhifəsinə keçid təklif edir və bu səhifədə "Decisive Armenian military victory" ("Erməni ordusunun həlledici qələbəsi") vurğulanır. Rus dilində "Karabax" sözü axtarıldıqda isə Google tərəfindən "xəbərlər" sözü əlavə olaraq təklif edilir və axtarış nəticələrinin birinci səhifəsində Ermənistanın xəbər saytlarının siyahısı təqdim edilir.

"Belə misallar minlərlədir" deyə, T.Zülfüqarov müraciətində bildirib.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, burada problem onunla bağlı ola bilər ki, erməni tərəfi müəyyən manipulyasiya etsin:** "Ola bilər ki, Google-un axtarış proqramlarının imkanlarından istifadə edərək manipulyasiya edə bilirlər. Belə imkanlar mövcuddur. Hesab edirəm ki, bu problemi həll etmək üçün biz də bunun üzərində işləməliyik. Azərbaycanla bağlı real həqiqətlərin dünyaya çatdırılması üçün müəyyən bir sistemli işin ortaya qoyulması məqsədəuyğun olardı. Yəni təsadüfi formada deyil, hansısa bir araşdırma mərkəzinə bununla bağlı tapşırıqlar verib, köməklik göstərmək olar ki, onlar məsələ ilə bağlı sistemli şəkildə işlər aparsınlar. Dünyada informasiya müharibəsinin getdiyi bir zamanda hansısa maliyyə, dövlət tərəfindən dəstəklənən qruplar əgər informasiya texnologiyalarından daha çevik istifadə edirlərsə, təbii ki, onlar bu məsələdə bir qədər üstün olurlar. Düşünürəm ki, hansısa bir araşdırma qrupu xüsusilə Qarabağ mövzusu ilə bağlı axtarış proqramlarında monitorinq etməlidirlər. Birincisi monitorinq oluna bilər ki, nə baş verir? Yəni misal üçün, "Qarabağ" yazanda birinci beşlikdə nələr çıxır. Çıxan informasiya zamanı "link"in hara getməsini də aydınlaşdırmaq lazımdır. İkincisi isə monitorinqin nəticəsindən asılı olaraq araşdırmaq lazımdır ki, burada manipulyasiya, təhriflər olunubmu? Yəqin ki, olunub. Çünki mən özüm də bu kimi hallara rast gəlmişəm. Baxan kimi hiss olunur ki, axtarış zamanı birinci beşliyə yalan informasiyaların çıxması ilə bağlı hansısa qruplar iş aparıblar".

**O. Gündüz bildirib ki, həqiqətlərin üzə çıxması, istifadəçilərə çatdırılması tək insanın işi deyil:** "Hesab edirəm ki, İnformasiya Texnologiyaları İnstitutunda vikipediya qrupu var ki, onlar da işə dəstək verə bilərlər. Bundan başqa, Azərbaycan dilinin spesifik xüsusiyyətləri ilə bağlı araşdırmalarımız olub. Həmin araşdırmalardan da istifadə etmək olar. Düşünürəm ki, yalan informasiyaların ilk sıralamada olmalarının səbəbi Rusiya və ya digər ölkə ola bilməz. Burada müəyyən qruplar var və güman ki, onlar ya erməni diasporu, yaxud da bu kimi qüvvələr tərəfindən maliyyələşirlər".

❑ **Əli RAİS**


Твиты Твиты и ответы Медиа

Novruz Məmmədov @NovruzMammadov · 1 ч.

"Dear" Mr. Dworkin, @funder

I have been waiting and contemplating for a while. Thinking that y
conscience would finally tell you that you are spreading lies and slan
That you could at least apologize. But the way I see it spreading lies is y
day job. Here is my proposition on info you shared about me. Should
be able to prove that I am the owner of 2 condos in the U.S., I her
announce that you will have 1 of them as a gift from me. Otherwise,
must apologize, that is if you have honor and dignity.

# Novruz Məmmədovdan ABŞ siyasətçisinə sərt cavab

## "Skott Dvorkin, sübut elə ki, mənim ABŞ-da iki mənzilim var"

**Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin rəhbəri Novruz Məmmədov özünün twitter bloqunda amerikalı siyasətçi, "Trampa qarşı demokratik koalisiya"nın üzvü Skott Dvorkinin ondan üzr istəməsini tələb edib. Virtualaz.org N.Məmmədovun bloquna istinadla xəbər verir ki, buna səbəb Dvorkinin Prezident Administrasiyasının şöbə müdiri barədə yaydığı məlumatdır. N.Məmmədovun twiti belədir: "Əziz" Dvorkin, mən gözlədim və bir müddət düşündüm ki, vicdanınız sizə yalan və böhtan yaydığınızı deyəcək və nəhayət, buna görə üzr istəyəcəksiniz. Lakin görürəm ki, yalan məlumat yaymaq sizin gündəlik işinizdir. Budur, sizin yaydığınız informasiya ilə bağlı mənim təklifim belədir. Əgər siz sübut edə bilsəniz ki, mən ABŞ-da iki kondomunimun (kooperativ binada mənzil) sahibiyəm, həmin mənzilin birini sizə hədiyyə edəcəyimi bəyan edirəm. Əks halda, siz üzr istəməlisiniz, əgər şərəf və ləyaqətiniz varsa".**

Bəs Skott Dvorkinin yaydığı hansı məlumatdan söhbət gedir? Virtualaz.org müəyyənləşdirib ki, amerikalı siyasətçi Novruz Məmmədov barədə məlumatı martın 15-də özünün twitter bloqunda yayıb. İddia edib ki, N.Məmmədov 2006-cı ildə Mayamidəki məşhur "Trump Palace"də iki mənzil alıb.

Həmin günlərdə ABŞ mətbuatı Trampın Rusiya ilə şübhəli işbirliyi barədə iddiaların izi ilə gedərək yazırdı ki, rusiyalı oliqarxlar 2000-ci illərin ortalarında "Trump Tower"dən mənzillər alıblar. Trampın "qülləsində" mənzillərin qiymətləri milyonlarla dollardır.



# Məhkəməsi gedən MTN generalı ayağa dura bilmir

**Sabunçu Rayon Məhkəməsinin binasında Bakı Şəhər Hərbi Məhkəməsinin icraatında olan MTN-in sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mürvətova, həmin qurumun vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi davam edir.**

Aprelin 20-də saat 11:00-a təyin edilmiş iclas uzun müddət başlamadı. Virtualaz.org-un əməkdaşı məhkəmə zalından xəbər verir ki, təqsirləndirilənlərin hamısı konvoyla gətirilsə də, onların arasında sabiq MTN generalı Sübahir Qurbanov olmayıb.

Yalnız saat 12:20-də prosesə sədrlik edən hakim Həbib Həsənov zala daxil olaraq, toplaşanlara məlumat verib ki, ona şifahi şəkildə bildirildiyinə görə, Sübahir Qurbanovun onurğa sütununda yırtıqlar aşkar edilib və o, kəskin ağrılar üzündən ayağa dura bilmir.

İclasın taleyi ilə bağlı dövlət ittihamçısı qeyd etdi ki, qanunvericiliyin tələbinə əsasən, təqsirləndirilən şəxs məhkəmə zalında iştirak etmirsə, proses davam etdirilə bilməz.

Hakim Həbib Həsənov məhkəmə iclasının növbəti həftənin çərşənbə axşamı, aprelin 25-dək təxirə salındığını elan edib.

**Aprelin 3-də Sankt-Peterburq metrosunda törədilmiş terror aktının təşkilatçılarından biri saxlanılıb. Saxlanılan şəxs 26 yaşlı Orta Asiya əsilli Abror Əzimovdur. Peterburq metrosunda baş verən terror aktının təşkilatçısı Odinsovo rayonunun ərazisində saxlanılaraq Rusiya İstintaq Komitəsinə gətirilib.**



# Nazarbayevin saqqal və qara geyim qadağasına Bakıda nə dedilər?

## Zahid Oruc: "Sözsüz ki, bu qərarın əksinə gedənlər olacaq, amma..."

Terror faciəsinin sifarişçilərindən birinin həbsi Orta Asiya əsilli miqrantların məsələsini yenidən gündəmə gətirib. Heç şübhəsiz ki, Cənubi Qafqazda ən böyük bazarlar Moskvada yerləşir. Bu baxımdan, Mərkəzi və Orta Asiyadan iş dalınca Rusiyaya gələnlərin sayı kifayət qədər çoxdur.

Peterburq terrorunun baş verdiyi ilk günlərdən bütün dünyada olduğu kimi, ölkəmizdə də Mərkəzi və Orta Asiyadan gələn miqrantlara nəzarətin gücləndirilməsi barədə xəbər verimişdik. Bunu sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl da qəzetimizə açıqlamasında təsdiqləmişdi.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Qazaxıstanda da Peterburq terrorundan sonra bu istiqamətdə görülən işlərdə hərəkətlilik müşahidə edilir. Belə ki, Qazaxıstan prezidenti Nursultan Nazarbayev qanunvericiliyə gənc oğlanlara saqqal saxlamağı, qızlara isə özlərini başdan ayağa qədər qaraya bürünməyi qadağanı nəzərdə tutan təkliflər irəli sürüb.

Düzdür, bu qərarın terrorla bağlı olduğu hələ təsdiqlənməyib, amma bununla əlaqədar olduğu ehtimalları çoxdur. Bu qərarın Azərbaycana da təsir edib-etməyəcəyi hələ məlum deyil.

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc mövcud situasiyanın ölkənin təhlükəsizlik qüvvələrinə daha fəal işləmək üçün əsaslar verdiyini söylədi:** "Biz Orta Asiyadan gələn vətəndaşların gəlişlərinə məhdudiyyətlər tətbiq edə bilmərik. Çünki bunun üçün yetərli əsaslar mövcud olmalıdır. Terror riskinin Rusiyanın timsalında nələr yaratdığını hər kəs gördü. Hamı bilir ki, bu ölkə müxtəlif şəbəkələrin, dini ekstremizmlərin, silah qaçaqmalçılarının, narkotik daşıyıcılarının hədəfindədir. Orta Asiyadan hər zaman miqrant axınları çox olub. Bunların bir hissəsi Çinə gedir, yaxud Rusiya bazarlarına yerləşirlər. Son hadisələr onların bu ölkələrdə qəbul olunmalarına mənfi təsir göstərib. Cəmiyyət tərəfindən onların qəbul olunmaması tələbləri səslənir. Hər bir ölkənin daxilində millətçilər var. Onlar xarici ölkə vətəndaşlarına qarşı mənfi münasibətlər göstərirlər. Şükürlər olsun ki, Azərbaycanda Orta Asiyadan olanlarla qarşıdurmalar olmayıb. Bizdə Rusiya bazarlarında olduğu kimi, böyük kriminal avtoritetlərin də savaşı mövcud deyil. Amma öz ölkələrində, yaxud digər yerlərdə cinayətlər törətmiş və ölkəmizə gəlmiş şəxslərin deportasiya olunmaları lazımdır. Lakin normal tərcümeyi-halları olan insanlar üçün əmək miqrasiyası dünyada bir axındır. Bunun qarşısından qaçmaq olmaz".

**Deputat Nazarbayevin qərarı barədə də danışdı:** "Nazarbayev nəinki türk dünyasında, dünyəvi siyasət məkanında müdrik bir siyasətçi kimi tanınır, qəbul olunur. O üzdən onun bildiyi çoxlu məsələlər var. Yaxşı bilir ki, bunların arxasında bir sıra məsələlər dayanır. Saqqalın nəyin simvolu olması ilə bağlı bütün əsrlər boyu diskussiyalar olub. Bu sonu görünməyən bir məsələdir. Hicab və qara geyimlərin bir çox hallarda terrorun pərdəsi də olduğu şübhə doğurmur. Kamikadzelik örtülü deməkdir. Sözsüz ki, bu qərarın əksinə gedənlər olacaq, insanların dini etiqadlarının məhdudlaşdırılması kimi qələmə veriləcək. Biz Avropada olanda onların dəyərlərinin xeyli fərqli olduğunu görürük. Amma bütün Avropa qazaxıstanlının və azərbaycanlının gözündə əxlaqi dəyərləri aşağı olan, ailə modellərindən kənarda duran, dinini ayaqlar altına alan cəmiyyət kimi qəbul oluna bilməz. Bu, çox yanlış yanaşma olardı. Ona görə dünyagörüşləri arasında belə fərqlərin olması mümkündür. Cəmiyyəti normal ideyalara, təhsilə, düşüncəyə daha çox stimullaşdırmaq lazımdır. Məhəmməd Peyğəmbər məktəbləri, oxumağı, öyrənməyi məscidlərdən üstün tuturdu. Açığı, deyə bilmərəm ki, özlərini qara libasa bürüyənlər hansı ideyalardan çıxış edirlər. Yüz il bundan öncə biz inqilab edib onu atdıq, indi onun üzərinə yenidən qayıtmağın heç bir anlamı yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Sabiq təhlükəsizlik xidməti zabiti QHT-lərin terrorçularla əlaqələrindən danışdı

## İlham İsmayıl: "Azay Quliyevin dediklərində başqa həqiqətlər var"

**"Bəzən qeyri-hökumət təşkilatları adı altında radikal birləşmələr maliyyələşdirilir, terrorçuluğa dəstək həyata keçirilir". APA xəbər verir ki, bunu QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, deputat Azay Quliyev Bakıda "QHT-lərə dair Azərbaycan qanunvericiliyi və praktikasının Avropa standartlarına uyğunlaşdırılması" adlı konfransda çıxışı zamanı deyib.**



Azərbaycanın geosiyasi baxımdan çox həssas bölgədə yerləşdiyini deyən deputat qeyd edib ki, ölkəmizin heç də asan olmayan qonşuları var: "Buna görə də hesab edirəm ki, tərəfdaşlarımız QHT sahəsində qanunvericiliyə edilmiş dəyişikliklər anlayışla qarşılamalıdır".

**Sabiq MTN polkovniki, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl bildirdi ki, radikal dindarların maliyyələşdirilməsi halları mövcuddur:** "Radikal dindarların maliyyələşdirilməsini sivil olaraq hansısa bank hesablarına pul köçürülməsi, QHT-lər vasitəsilə həyata keçirilməsi kimi hallar az inandırıcıdır. Amma onların maliyyələşdirilmələri var. Sadəcə, bunlar QHT-lər vasitəsilə deyil, başqa gizli yollarla həyata keçirilir. Azay müəllim yəqin ki, QHT-lərin xaricdən maliyyələşdirilməsinin tamamilə dayandırıldığını bilir. Əgər məlumdur ki, hansısa dini qrup QHT adı ilə xaricdən maliyyələşir, demək, hansısa bir informasiya var və bunun qarşısını almaq lazımdır. Amma bütövlükdə biz bilirik ki, QHT-lərin kənardan maliyyələşməsi dayandırılıb. Azay müəllimin dediklərində başqa həqiqətlər var. Bəli, çox təhlükəli bölgədəyik, bizim təhlükəli qonşularımız var, müstəqilliyimizi sinirə bilməyən şimal və cənub qonşularımız var. Bu istiqamətdə radikal dini qrupların, eyni zamanda dindar deyil, başqa qüvvələrin də maliyyələşmələri mümkündür, separatçıların da maliyyələşmələrini istisna etmək olmaz. Bu istiqamətdə həqiqətən də çox təhlükəli geopolitik zonadayıq. Bu mənada Azay müəllim həqiqətləri deyir. Amma radikal dini qruplar açıq şəkildə heç vaxt qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərməz. Onun üçün mövhumat, başqa bir ideologiya lazımdır. Buna maliyyə lazım olsa da, heç vaxt açıq şəkildə almayacaq. Maliyyəni gizli yollarla əldə edəcəklər. Fakt budur ki, sivil yollarla Qərbdən, Avropadan maliyyələşən QHT-lərimiz var idi. Rusiyanın özündə də bu tipli təşkilatlar az deyil, bəzilərinin indi qarşısı müəyyən dərəcədə alınsa da, amma var. Bu qadağalar daha çox onlara şamil olundu. Bizdə radikal dindarların kimlər olduğu məlumdur. Hansı qanadlarının olduğunu da bilirik. Amma onların hansılarının sivil şəkildə QHT kimi tanınmış təşkilatı var? Rusiya və İran maliyyələşdirdiklərini başqa xətlərlə maliyyələşdirirlər, hansısa layihələrlə, QHT-lərlə yox. Amma bunları bütün QHT-lərin gözünə qatıb, onların bütövlükdə maliyyələşdirilmələrinin qarşısını almaq başqa söhbətdir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017



# Kreml separatizmə dəstək siyasətini dəyişir - "Lavrov Qarabağda"

## Rusiya baş diplomatının Abxaziya səfərində güdülən əsas məqsəd; Moskva Bakının da götürməli olduğu mesajla nə demək istəyir? "Bloomberg" Kremlin strateji hədəfindən yazdı: "Rusiya tədrici hərəkət edir…"

**Xəbər verdiyimiz kimi, aprelin 18-19-da Rusiyanın xarici işlər naziri Sergey Lavrov Gürcüstanın qanuni ərazisi sayılan Abxaziyada səfərdə olub. Beynəlxalq hüquq baxımından tam qanunsuz sayılan bu səfəri Moskva sözsüz ki, qanuni hesab edir. Çünki separatçı qurumu tanıyan yeganə ciddi dövlətdir.**

Digər heç bir ölkə hələ ki bu addıma getməyib. Hətta 2008-ci ildəki "5 günlük" müharibədən sonra Abxaziya və Cənubi Osetiyanı Moskvanın təzyiqlərinə rəğmən, heç onun marioneti Ermənistan və ən yaxın tərəfdaşı Belarus belə tanımayıb.

***

**Qayıdaq Lavrovun Abxaziya ziyarətinə. Səfərdən sonra Rusiya baş diplomatının verdiyi açıqlamalar kifayət qədər maraq kəsb edir və Kremlin Cənubi Qafqaz siyasətinin vektorlarına bir daha işıq salır. Ən mühüm məqamlara diqqət edək.**

"Biz əminik ki, yaxın gələcəkdə Gürcüstan və Abxaziya arasında güc tətbiq etməmək haqqında hüquqi əhəmiyyətli sənəd imzalanacaq". Sergey Lavrov belə deyib (axar.az). O, bu sənədin bütün Qafqaz regionu üçün vacib siqnal olacağını da bildirib.

Yəni Gürcüstanın bir parçasını ondan qoparıb "dövlət" yaratmaq azmış kimi, indi də Moskva Abxaziya və Gürcüstan arasında bərabərhüquqlu təhlükəsizlik sənədinin imzalanmasını təklif edir. Bununla da Abxaziyanın dövlət olaraq varlığını, yəni legitimliyini ən əvvəl Tiflisə qəbul etdirməyə, nəticə etibarilə bölgədə öz təsirini gücləndirməyə çalışır. Gürcüstan hökuməti sözsüz ki, bu addıma getməyəcək.

***

Jurnalistlər Lavrova həmçinin Moskva-Suxumi-Tiflis-İrəvan dəmir yolunun nə zaman fəaliyyətə başlayacağı ilə bağlı da sual veriblər. Cavabında Rusiyanın baş diplomatı Abxaziyada bu məsələni müzakirə etmədiyini bildirib. "Rusiya tərəfi öz mallarının bu dəmiryolu vasitəsilə ötürülməsinin reallaşdırılmasının əleyhinə deyil. Hətta bunun üçün hüquqi əsas da var. Bu dəmir yolunun yenidən fəaliyyətə başlaması təkcə bizdən yox, həm də digər ölkələrdən asılıdır" - Lavrov qeyd edib.

Yada salaq ki, keçən ilin əvvəllərində Rusiya prezidenti Vladimir Putin adıçəkilən dəmir yolunun fəaliyyətə başladılmasını təklif etmişdi. Tiflis əvvəlcə buna müsbət yanaşsa da, sonradan fikrini dəyişmişdi. Səbəb sübhəsiz ki, ən əvvəl Azərbaycanla bağlı idi. Çünki Gürcüstan strateji müttəfiqi Azərbaycanla münasibətləri poza bilməzdi. Hər necə olmasa, Moskva-Suxumi-Tiflis-İrəvan dəmir yolunun işə düşməsi Rusiya ilə heç bir quru əlaqəsi olmayan işğalçı Ermənistan üçün məxsusi əhəmiyyət daşıyır.

Yeri gəlmişkən, bu ilin fevralında Ermənistan baş naziri Karen Karapetyanın Tiflis səfərində əsas hədəflərdən biri məhz dəmiryolunun açılması ilə bağlı olub. O vaxt da gürcü rəsmiləri erməniləri sevindirə bilməmişdilər. Ancaq bu, o demək deyil ki, məsələ gündəmdən çıxıb və qapanıb. Azərbaycanın ayıq olması lazım. Həm də o səbəbə ki, Lavrov Abxaziya ilə bağlı başqa mesajlar da verib. O sırada bəyan edib ki, Abxaziyanın təhlükəsizliyinə ən etibarlı şəkildə Rusiya tərəfindən zəmanət verilib. Nazir hətta separatçı qurumun Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzvlüyünü də istisna etməyib.

**Sitat:** "Biz Abxaziyanın KTMT ilə əməkdaşlığından məmnun olardıq. Abxaziyanın KTMT-yə tamhüquqlu üzv olması və ya müşahidəçi statusu qazanması Alyansın bütün üzvlərinin konsensusundan asılıdır. Bu təşkilatın Abxaziyanın təhlükəsizliyini təmin etməsinə gəlincə, Suxuminin təhlükəsizliyinə ən etibarlı şəkildə Rusiya ilə Abxaziya arasında müqavilələrlə zəmanət verilib".

***

**Bu arada nüfuzlu "Bloomberg" agentliyi Rusiyanın postsovet məkanında yaratdığı separatçı qurumlara yönəlik siyasətini işıq salan başqa bir faktdan yazıb. Musavat.com-un məlumatına görə, materialda müəllif Moskvadakı üç ciddi mənbəyə istinadla Putinin Donbasa nəzarəti gücləndirdiyini qeyd edərək, bildirir ki, strateji hədəf - Rusiya ilə tədrici inteqrasiya vasitəsilə Donbası bütünlüklə Ukraynadan ayırmaqdır.**

"Rusiyanln planlarına Ukraynanın şərqində özünü müstəqil elan eləmiş respublikaları tanımaq daxil deyil. Rusiya tədrici hərəkət edir. O sırada ukraynalı fəalların tətbiq elədiyi iqtisadi blokadadan yararlanır. Eyni zamanda qondarma respublikalarla həlledici xarakterli iqtisadi əlaqələr qurur. Putin ABŞ-ın Ukrayna problemlərinə yanaşmasında qeyri-müəyyənliyindən də yararlanır. Bunula da Minsk anlaşmasının yerinə yetirilməsinə və özünə qarşı sanksiyaların götürülməsinə olan ümidləri heçə endirir", - deyə agentlik qeyd edib.

***

Göründüyü kimi, rəsmi Kreml separatçı qurumlar və bölgələrlə bağlı ənənəvi siyasətini daha da cilalalamaq, təkmilləşdirmək kursu götürüb. Odur ki, yeni taktikadan Azərbaycanın da çıxarmalı olduğu nəticələr var. Hər necə olmasa, Rusiya Qarabağ probleminin həllində əsas vasitəçi olaraq qalır. Moskvanın necə bir "ədalətli" vasitəçi olduğu isə Abxaziya məsələsində çılpaqlığı ilə üzə çıxdı.

İndi də Rusiya öz baş diplomatını nümayişkaranə şəkildə separatçı bölgəyə göndərməklə Azərbaycana da mesaj verir ki, "özünü Gürcüstan kimi pis aparsa, günün birində Rusiya XİN başçısının Qarabağa da analoji səfəri reallaşa bilər". O üzdən Bakı son vaxtlar Moskvanın postsovet məkanında özünün yaratdığı separat bölgələrə yönəlik siyasətini və bu siyasətə edilən düzəlişləri diqqətlə izləməlidir.

❑ **Analitik xidmət**

# Qarabağ - beynəlxalq siyasətin alver predmeti kimi

## Razi Nurullayev: "Bu ənənəni Tramp seçkilərdə pozdu və sübut etdi ki, ermənilər dəstək vermədən də qələbə qazanmaq mümkündür"

**Aprelin 23-də Fransada prezident seçkilərinin birinci turu keçiriləcək. İkinci tur isə mayın 7-nə nəzərdə tutulub. Prezident kürsüsü uğrunda 4 namizəd mübarizə aparır. Fransanın sabiq iqtisadiyyat naziri Emmanuel Makron, radikal millətçi Milli Cəbhə Partiyasının lideri Marin Le Pen, "Baş əyməyən Fransa" hərəkatının lideri Jan-Lyuk Melanşon və keçmiş baş nazir Fransua Fiyon.**

Prezidentliyə namizədlərin ikisi seçki kampaniyasında gedən mübarizədə ermənilərə xoş gələn, Azərbaycanın isə dövlət maraqlarına qarşı olan bəyanatlar verməkdədirlər. Məsələn, Marin Le Pen Qarabağ münaqişəsinin nizamlanması üçün Azərbaycanın işğal edilmiş ərazisinin Ermənistana birləşdirilməsinin zəruri olduğunu söyləyib. Prezidentliyə digər namizəd Fransua Fiyon isə Dağlıq Qarabağı vaxtilə Stalinin Ermənistandan ayırıb Azərbaycana birləşdirdiyini bildirib.

Göründüyü kimi, Fransa kimi böyük dövlətdə prezidentlik uğrunda mübarizədə Dağlıq Qarabağ məsələsi dəllal siyasətçilərin alver predmetinə çevrilib. Son illərə qədər ABŞ-da və digər bir sıra dövlətlərdə də seçki kampaniyasında belə hallar müşahidə olunurdu.

Bəs Azərbaycan hökuməti Fransaya namizədlərin məlum iddiaları ilə bağlı etirazını bildirməlidirmi? Ümumiyyətlə, bizə Fransada 4 namizəddən hansının seçilməsi nisbətən də olsa sərf edir?

**Yeni AXCP-nin sədri Razi Nurullayev bildirdi ki, erməni lobbisinin dəstəyini qazanmaq istəyən namizədlər həm Fransada, həm də ABŞ-da ermənilərin xoşuna gələn bəyanatlar səsləndiriblər:** "Bu ənənəni ABŞ-da hazırkı prezident Donald Tramp keçən il keçirilən seçkilərdə pozdu və sübut etdi ki, ermənilər dəstək vermədən də seçkilərdə qələbə qazanmaq mümkündür. Əfsuslar olsun ki, namizədlər bu cür addımlarla özlərini erməni lobbisinin girovuna çevirirlər. Heç bir siyasətçiyə, nə onlara, nə də özümüzə girovluq arzu etmirəm. Bu gün Azərbaycan iqtidarının, o cümlədən biz müxalifətin Fransada namizədlərə rəsmi səviyyədə etiraz bildirməyimizə ehtiyac görmürəm. Amma ictimaiyyət və bizlər siyasi partiyalar və siyasətçilər olaraq onları qınamalı və ABŞ prezidenti Donald Trampı onlara nümunə göstərməliyik".

**Razi Nurullayev əmindir ki, istər Marin Le Pen, istərsə də Fransua Fiyon prezident seçilsə, onlar seçki kampaniyasında olduğu kimi qəti olaraq Ermənistana dəstək olmayacaqlar:** "Seçki kampaniyasında verilən bəyanatlar, sadəcə, çoxsaylı erməni seçicilərinə ünvanlanmış fikirlərdir və namizədlər məsləhətçilərinin yazıb qabaqlarına qoyduğu mətni oxuyublar. Prezidentlik kürsüsünə əyləşəndən sonra çılpaq həqiqətlərlə üz-üzə qalacaqlar və bu kimi fikirləri səsləndirməkdən çəkinəcəklər. Fransanın Azərbaycana, Dağlıq Qarabağ məsələsinə münasibəti hazırda necədirsə, həmin 4 namizəddən hansı seçilməyindən asılı olmayaraq münasibət belə də qalacaq. Amma buna baxmayaraq, hər iki namizədin səsləndirdiyi fikirləri partiya sədri olaraq qınayır və etirazımı bildirirəm. Normal və ağıllı siyasətçilər yalan danışmır, yalanlara inanmır və bir-iki səs üçün də başqa millətin haqqına girmir. Əgər onlar bu gün qəbul olunmuş beynəlxalq normalara və BMT-nin qəbul etdiyi qətnamələrə qarşı çıxırlarsa, Fransa xalqına da yalan söyləyə, onun da haqqına girə bilərlər".




**DİP sədri, deputat Asim Mollazadə isə ölkə.az-a deyib ki, bu məsələdə təəccüblü bir şey yoxdur:** "Fransada çox zəngin və təşkilatlanmış erməni diasporu var və bu təşkilat hər zaman Fransanın siyasi həyatında çox fəal iştirak edir. Təbii olaraq prezident seçkilərində istənilən vədlər verilə bilər. Məsələn, ABŞ-ın keçmiş prezidenti Barak Obama prezidentliyə namizədliyini verən zaman "erməni soyqırımı"nı tanıyacağını bəyan etmişdi. Ancaq Obama prezident seçildikdən sonra belə bir fikirdən vaz keçdi. Azərbaycan hələ gözləməlidir. Seçkilər, onun emosiyaları, hansısa maddi maraqlar bitib dövlət maraqları önə keçdiyi zaman hansısa bir addım atılsa, Azərbaycan öz mövqeyini ortaya qoya bilər. Hazırda isə baş verənlər Fransa siyasətinin mənfi çalarlarıdır, səs qazanmaq üçün istənilən təşkilatlanmış, varlı lobbi qrupları ilə namizədlərin apardığı oyunlardır. Mənə elə gəlir ki, seçki kampaniyası zamanı verilən vədlərlə real siyasətin arasında ciddi fərqlər var".

**Azərbaycan lobbisinin yerləşdiyi ölkələrdə siyasi proseslərə müdaxilə edə bilməməsi məsələsinə gəldikdə isə deputat bildirdi ki, bizim orada təşkilatlanmış bir diasporumuz yoxdur ki, onun fəaliyyətindən hansısa nəticə gözləyək:** "Fransada böyük Türk diasporu var. Azərbaycanlıların sayı Fransada çox azdır. Bizim orada təşkilatlanmış bir diasporumuz yoxdur ki, onun fəaliyyətindən hansısa nəticə gözləyək. Azərbaycanlılar öz vətənlərinə çox bağlı olduqlarına görə Azərbaycanın maraqlarını düşünən insanlar öz vətənlərində yaşayırlar, hansısa ölkələrdə yaşayanlar isə lobbiçiliklə məşğul olmurlar. Türk lobbisi isə Fransada yaxşı təşkilatlanmayıb, parçalanıb. Odur ki, olduğu ölkənin siyasətinə ciddi təsir göstərə bilmir".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017



# Qorxaq repondentlər

Samir SARI

**Beynəlxalq rəy sorğuları çox maraqlı olur. Bu günlərdə elə bir sorğunu Türkiyənin "Barem" araşdırma mərkəzi və "WİN Gallup İnternational" beynəlxalq sorğu şirkəti keçirib. Şirkətin işçiləri dünyanın müxtəlif ölkələrində 66 minə yaxın şəxsdən - respondentlərdən dindar olub-olmadıqlarını soruşublar və ortalığa xeyli maraqlı nəticələr çıxıb.**

Məlum olub ki, bizim ölkəmiz dindarlığa görə 67 ölkə arasında 53-cü sıradadır.

Sorğunu harda aparıblarsa, respondentlərin 35%-i dindar olduğunu, 65 faizi dindar olmadığını bildirib. Ən maraqlısı odur ki, sorğu iştirakçılarının qarşısına ateist çıxmayıb. Ölkədə ateistlərin faizini göstərən qrafanın qarşısında 0 rəqəmi durur. Bütün ölkələrdə ateistlər var, bizdən başqa.

Bu baxımdan, adam az qalır sorğunun nəticələrinə şəkk eləsin. Axı adicə sosial şəbəkədə hər gün ateistlərlə dindarların qırğını gedir, necə ola bilər, birincilərin sayı faizlə əks olunmasın.

Ancaq güman ki, şəkk etməyə dəyməz. Bizim camaatın xasiyyətidir, həssas məsələlərdə dərhal siyasətçi, diplomat damarı yoğunlayır və suala həqiqəti əks etdirən cavabı vermirlər, özlərinə sərf edən cavabı verirlər.

Məsələn, imtahan üçün telefonu götürün, 100 ixtiyari nömrəyə zəng vurun, soruşun: "Hakimiyyəti dəstəkləyirsinizmi?"

O nömrədən bir neçəsi təsadüfən müsavatçı, cəbhəçi evinə məxsus olacaq və onlar düşündüklərini deyəcəklər, yüzdə 95 halda isə cavablar birmənalı belə olacaq: "Dəstəkləyirik, həmişə də hökumətə səs veririk".

Amma siz gəlin, o adamları xeyir-şər məclislərində danışdırın. Çörəyin bərəkətinə and olsun, hətta hökumət işində, büdcə təşkilatında çalışan adamlar da elə yana-yana danışacaqlar ki, 25 ilin müxalifətçisi deyəcək, ay qardaş, o qədər də deyil, hər şeyi qara görmək olmaz, bu hökumətin yaxşı işləri də var.

Məclisdən çıxsın, o "mağar dissidenti"nin ağzına AzTV mikrofonu dirəsinlər, dövlətçilikdən, hökumətin gördüyü uğurlu işlərdən, iqtisadi inkişaf tempindən, Lələtəpənin azad edilməsindən, regionun lideri olmağımızdan elə danışacaq ki, bəlkə də iqtidar qəzetlərinin yazarları indiyədək belə dolğun yazı yaza bilmədiklərinə görə xəcalət çəkəcəklər.

Yəni səmimi fikirlərin izharı sırf məkana və zamana bağlıdır. Bizdə zaman-məkan məsələsi özümüzə xas şəkildə həll olunub.

Məhz bu üzdən bizim respondentlər "dindarsınızmı" sualına optimal cavablar veriblər, 35 faiz adam deyib ki, "dindaram", 65 faiz də deyib ki, dindar deyiləm. Ancaq bu, o demək deyil ki, ölkə əhalisinin eləcə 35 faizi dindardır. Yox. Məsələ ondadır ki, bu saat dindar olmaq dəbdə deyil, adamın üstünə "agent", "ekstremist" adı qoyurlar. Bir vaxtlar kirayəyə ev axtaran ateistlər belə ev yiyəsinə xoş gəlmək üçün "namaz qılan, oruc tutan adamıq" deyirdilərsə, hazırda dindarlara hələm-hələm kirayə ev verilmədiyi üçün bəzi namaz qılan, oruc tutanlar belə "dindar-filan deyilik" deyirlər. Çünki onlara ev lazımdır, bu daha vacibdir.

Görünür, indi Tailandda dindar olmaq daha prestijlidir. Sorğuya əsasən, Tailandda əhalinin 98%-i dindardır. Hər halda belə deyiblər.

Eyni söhbət Çinə də aiddir, amma iş bir az əksinədir. Sorğunun nəticəsinə görə, bu ölkədə ateistlər dindarlardan 10 dəfə çoxdur. Böyük ehtimalla bu rəqəmlər də həqiqəti əks etdirmir. Sabah hakim kompartiya dindar olmağa icazə versə, bir gecənin içində o yalançı ateistlər məbədə ibadətə gedəcəklər, məlum olacaq ki, əslində Çində əhalinin 15-20 faizi ateistdir.

Heç demə, Nigeriyada əhalinin 97%-i özünü dindar sayır. Burda bir yanlışlıq olmalıdır, əl-əlbət. Yəqin ki, camaat "Boko Haram"ın qorxusundan özünü dindar kimi göstərir. Çünki bu təşkilatda Allah qorxusu, peyğəmbər mərhəməti yoxdur, qabağına çıxanı qıra-qıra, zorlaya-zorlaya gedir.

Ermənistan əhalisinin dindarlığının 92 faizlik göstəricisini isə səmimi saymaq olar. Ermənilər fanatikcəsinə dindardırlar, "Astvas" sözü dillərindən düşmür.

Bəs nə əcəb İranda, dindarlar əhalinin 77%-ni təşkil edirlər? Çox olmalıydı. Baxın, artıq Türkiyə öz 74%-i ilə necə də İrana yaxınlaşır. Əvvəllər qardaş ölkədə bu qədər dindar yox idi, indi maşallah, 74 faizdir, inşallah, 77 də olar.

Ən maraqlısı isə odur ki, peyğəmbərlərin 99 faizinin doğulduğu İsraildə cəmi 39% dindar var. Belə çıxır ki, Musa, İbrahim, Davud, Süleyman, İshaq və digər peyğəmbərlərin ardıcılları yoxdur.

# Baş liftçini həbsə götürəcək sensasion faktlar

**Qızının təmtəraqlı toyu və zəngin həyatı ilə gündəmə gələn Bakı Lift İdarəsinin rəisi Qüdrət Şükürovla bağlı yeni məlumatlar üzə çıxıb. Musavat.com-un əldə etdiyi məlumata əsasən, idarə içərisində olduqca əzazil və işçilərinin haqqını kəsən adam kimi tanınan Qüdrət Şükürovun dəbdəbəli həyatının mənbəyi onun büdcədən mənimsədiyi, milyonlarla ölçülən vəsaitdən gəlir.**




## 400 min dollara toy edən vəzifəli məmur "tros oğrusu" çıxdı - sərvətin qaynağı bilindi

Övladının 400 min dollarlıq toyu ilə gündəmə gələn Bakı Lift İdarəsinin rəisi haqqında heyrətamiz məqamlar açıqlanıb; onun tabeliyində çalışan mütəxəssis hər şeyi açıqladı; dövləti talayıb, iqtidarı aldadıb...

Vaxtilə Bakı Lift İdarəsində çalışmış mötəbər mənbə musavat.com-a bildirib ki, 2013-cü ildə Bakı şəhərində köhnə liftlərin dəyişdirilməsi və əsaslı təmiri üçün Azərbaycan prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən Prezidentin Ehtiyat Fondundan 7 milyon manat vəsait ayrılıb və həmin vəsaitin mühüm bir hissəsi çırpışdırılıb. *(Bundan sonrakı məlumatlar həmin mütəxəssisin təqdim etdiyi faktlar əsasında hazırlanıb - redaksiya).*

Bundan başqa, 2013-cü ilin dövlət büdcəsinin əsaslı vəsait qoyuluşundan da 50 milyon manat ayrılıb. Bu pullar da heç bir əsaslı iş görülmədən yeyilib və ya başqa məqsədlərlə xərcləndiyi göstərilərək silinib.

**Mənbəmiz deyir:** "Qüdrət Şükürovun rəhbərlik etdiyi idarə Sankt-Peterburqdan gətirilən və dəyəri 8 min manat olan lifti 54 min manata sənədləşdirdi. Həm də nəzərə alaq ki, həmin vaxt dolların kursu 0,78 manatdan hesablanırdı. Yəni 8 minlik bir liftin alınmasına 54 min manat pul silindi".

Musavat.com-a verilən məlumata görə, Qüdrət Şükürovun varidatının digər mənbəyi liftlərin quraşdırılması və montajı ilə bağlıdır. Belə ki, iş cədvəlində bir liftin montajı üçün 12400 manat yazıldığı halda, briqadir və fəhlələrə, sadəcə, 1440 manat pul ödənilib. Briqadalara verilən rəqəmlər sonradan lap aşağı, 800 manat səviyyəsinə qədər salınıb. Yəni bir liftin quraşdırılmasından cənab Şükürov ən azı 11 min manat qabağa düşüb.

**Mənbəmiz deyir:** "Nəticədə Bakı şəhərində dəyişdirilməsi planlanan liftlərin ən azı yarısı dəyişdirilməyib. Cəmi 600 lift dəyişdirildiyi halda isə hökumətə 1000 liftin yenidən montajı barədə saxta hesabat verilib. Beləliklə, 400 liftin pulu dövlətin büdcəsindən çıxarıldı".

Bununla belə, Bakı Lift İdarəsinin dövlət büdcəsinə 8 milyon manat borcu yaranıb və onun, sadəcə, 2 milyonu ödənilib.

Bundan başqa, Bakı şəhərində dövlət binalarında istifadə olunan 5000 liftin hər birinin lazımi vəziyyətdə saxlanılması və təmirindən ötrü dövlət tərəfindən ayda 35 manat pul ayrılır.

Bu təkcə bir ayda 175 min manat, ildə isə 2 milyon yüz min manat pul deməkdir!

Lakin hər kəsə məlum olduğu kimi, həmin məbləğ nəinki liftlərin lazımi vəziyyətdə saxlanılması və təmiri üçün xərclənmir, hətta sakinlərdən heç bir əsas olmadan "lift pulu" adı altında əlavə ödəniş qəbul olunur.

Bütün bu məlumatları analiz edəndə idarə rəisinin dəbdəbəli həyatı ilə bağlı gedən söz-söhbətlərin motivlərini anlamaq çətin deyil. Bu xüsusda əlavə təfərrüatlar da var.

Belə ki, Qüdrət Şükürovun öz ailəsi, həyat yoldaşı və qızı üçün ayrı -ayrı maşın və sürücü tutduğu iddia olunur. Onların xərcləri isə Bakı Lift İdarəsinə tabe olan 5 müəssisənin rəhbərləri tərəfindən ödənilir. Bu da könüllülük əsasında deyil. Bu cür ödəmələrə etiraz edən vəzifəli şəxslərə büdcəyə olan borcları xatırladılır və onlar həbs olunacaqları ilə hədələnirlər.

Qüdrət Şükürovun öz qızına "Alov qülləri"ndə 160 kv-lik ev aldığı, həmin mənzili isə müxtəlif vaxtlarda 3 dəfə təmir etdirdiyi də iddialar arasındadır. Məlumatlı mənbə bildirir ki, idarə rəisinin qızının həmin evi üçün Türkiyədən 180 min manatlıq saat sifariş edilib.

Qüdrət Şükürovla bağlı digər maraqlı məlumat onun vaxtilə özünün idarə rəisi işlədiyi vaxt tros və tros çarxı oğurluğuna görə həbs edilməsidir. Lakin hansısa səbəblərdən həbsdən canı qurtulan bu adam sonradan bütün idarələrin rəisi postuna gətirilib.

Bundan başqa, əvvəl də xəbər verildiyi kimi, Akif Çovdarovla da əlaqələri ortaya çıxan Qüdrət Şükürov həmin vaxt MTN təmizləmələrində işdən azad edilən bir qohumunu Bakı Lift İdarəsinin bazasına müdir təyin edibmiş. Əvvəllər, sadəcə, təhlükəsizlik xidmətində çalışan həmin adamın heç bir istehsalat təcrübəsi ümumiyyətlə olmayıb.

Verilən məlumatlara görə, Qüdrət Şükürov bütün yaxın qohumlarını, bacısı, qardaşı qızlarını, gəlinlərini ixtisaslarına uyğun olmadığı halda Bakı Lift İdarəsinin müəssisələrində yerləşdirib. Həmin adamlara 400 manat maaş kəsilib. Həmin 400 manatın 250-si idarədən aldıqları rəsmi maaş, qalan 150 manat isə idarələrin öz "cib"indən bu şəxslərə ödənilir. Hər ayın axırlarında həmin xanımların yoldaşları idarəyə gəlir, "maaş"larını alıb gedirlər. Halbuki Bakı Lift İdarəsinin 250 manat maaşa möhtac olan əsl işçiləri 2 ildir əmək haqqı üzü görmürlər.

Sadəcə, qocalıqlarında cüzi pensiya almamaq qorxusu ilə yaşayan həmin insanlar bütün bu olanlar qarşısında səslərini çıxarmırlar.

**Mövzu, əlavə faktların təqdimatı ilə davam etdiriləcək.**

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017

**ABŞ dövlət katibi Reks Tillerson bəyan edib ki, 2015-ci ildə beynəlxalq vasitəçilərin iştirakı ilə İranın nüvə proqramına dair imzalanmış müqavilə iflasa uğrayıb. Tillersonun bu çıxışı İran siyasətində Obama hakimiyyətindən fərqli olaraq kəskin dönüş kimi xarakterizə edilir.**



# ABŞ İranla nüvə sazişini pozur-region yenə qaynayacaq

## Dövlət katibi Reks Tillerson bəyan edib ki, 2015-ci ildə İranın nüvə proqramına dair imzalanmış müqavilə iflasa uğrayıb; sərhədimizdə olan ölkə ilə qarşıdurma Azərbaycanı da təhlükə ilə üz-üzə qoya bilərmi?

Bəs bu qədər kəskin dönüşün səbəbi nədir? Obama yanlış etmişdi, yoxsa zamanla vəziyyət dəyişib? Sərhədimizdə olan ölkə ilə ABŞ-ın qarşıdurması Azərbaycanı da təhlükə ilə üz-üzə qoya bilərmi?

**Politoloq Elçin Mirzəbəyli** bildirdi ki, Tillersonun bəyanatı Donald Trampın seçki öncəsi və sonrası İranın nüvə proqramı ilə bağlı imzalanmış sazişin ABŞ-ın milli maraqlarına xidmət etməməsi ilə bağlı səsləndirdiyi fikirlərin davamıdır. Artıq Tramp Milli Təhlükəsizlik Şurasına sazişin araşdırılmasını tapşırıb və bu, Ağ Evin niyyətinin ciddiliyindən xəbər verir. Tramp administrasiyasının qənaətinə görə, saziş İran üzərindən bəzi sanksiyaların götürülməsinə və bu ölkənin iqtisadiyyatının "özünə gəlməsinə" imkan yaradıb: "Ağ Ev Obamanın imzaladığı sazişi İran üçün nəfəslik kimi dəyərləndirir və Amerikanın bundan heç bir şey qazanmadığını bildirir.

Tramp seçki kampaniyasında da Obamanın İranla bağlı siyasətini tənqid edir, prezident seçiləcəyi təqdirdə sazişə yenidən baxılacağı ehtimalını irəli sürürdü. Şimali Koreya və İran respublikaçıların strateji hədəfləridir. ABŞ İraqdan sonra "Şər üçbucağı"nın digər bucaqlarını özünə ram etdirə bilməyib. İranın nəzarətə götürülməsi isə Aralıq dənizi hövzəsinin və Tehranın Fars körfəzi, ərəb ölkələrinin isə "Ərəb körfəzi" adlandırdıqları mühüm strateji əhəmiyyət daşıyan su hövzəsinin ələ keçirilməsi deməkdir. Aralıq dənizi və Ərəb körfəzi üzərində nəzarət isə bütün bölgənin ələ alınması, Çin, Rusiya, Avropa İttifaqı ölkələri və bölgə dövlətləri üçün həyati əhəmiyyət daşıyan bütün nəqliyyat dəhlizlərinə sahiblənmək deməkdir".

**Politoloqun sözlərinə görə, respublikaçıların, o cümlədən Tramp administrasiyasının hədəfi ABŞ-ın vahid qlobal güc statusunun möhkəmləndirilməsidir:** "Obamanın xarici siyasəti isə bu statusun xeyli zəifləməsinə zəmin yaratmışdı və Tramp ABŞ-ın geosiyasi maraqları baxımından sabiq prezidentin mövqeyini haqlı olaraq tənqid edir. ABŞ-ın yaxın zamanlarda İranla hərbi konfrantasiyaya gedəcəyi inandırıcı deyil. Ağ Ev çox güman ki, Obamadan əvvəlki dövrdə İranla bağlı yürüdülən siyasətdə buraxılan səhvlərdən nəticə çıxarıb. Hazırda İranda hökm sürən teokratik rejimin ən böyük silahı hərbi müstəvidə xarici düşmən amilidir. Xarici təhlükə rejimin əhalinin əhəmiyyətli bir hissəsini dini-siyasi ritorika ilə nəzarətdə saxlamasına imkan verir. Çox güman ki, Tramp administrasiyasının yanaşması fərqli olacaq. Əgər saziş ləğv olunarsa, o zaman İrana qarşı sanksiyalar daha da sərtləşdiriləvə insan hüquq və azadlıqları ilə bağlı məsələ daha qabarıq şəkildə gündəmə gələ bilər".

**O ki qaldı ABŞ-İran qarşıdurmasının Azərbaycana təsirinə, E.Mirzəbəyli hesab edir ki, bu, ölkəmizə ciddi təsir göstərə bilər:** "Azərbaycan öz ərazisindən İrana qarşı istifadə edilməyəcəyini bildirib. Bu mövqenin dəyişməz olduğu və İranla qarşıdurmada olan dövlətlərin də bu reallığa anlayışla yanaşacaqları qənaətindəyəm".

**Politoloq Elşən Mustafayev isə bildirdi ki, Tillersonun verdiyi bəyanat öncədən gözlənilən idi. Məlum idi ki, Obama administrasiyasının 2015-ci ildə İranla imzaladığı müqavilədə digər məsələlərlə bağlı da razılıq əldə olunmuşdu:** "Sözsüz ki, burada Suriya məsələsi ilə bağlı da ilkin razılaşmalar olmuşdu. Buna baxmayaraq, bu gün Əsəd rejimini dəstəkləyən iki dövlətdən biri İrandır. Nüvə texnologiyası ilə bağlı da İran rəsmiləri artıq fərqli münasibətlər sərgiləməyə başlayıblar. Yəni görünür ki, 2015 müqaviləsindən sonra razılaşdırılmış məsələlər öz həllini tapmayıb. ABŞ hərbi qüvvələrinin Suriyaya qarşı raket hücumundan sonra İrana yönəlik tədbirlərin görüləcəyi ilə bağlı bəyanatların verilməsi situasiyaya uyğun olaraq gözlənilən idi".

**Ekspert dedi ki, məsələnin təhlükəli tərəfi İranın ortaq məxrəcə gəlməyəcəyi halda hadisələrin hərbi müstəviyə keçəcəyi ehtimalıdır:** "Obamadan fərqli olaraq Tramp Rusiya və İranı saya salmadan Əsədin nəzarət etdiyi hərbi aviabazaya 60-a yaxın "Tomaqavk" raketləri atırsa, deməli, problemi köklü həll etmək üçün qərarlıdır. Bu istiqamətdə ona mane olacaq hər kəsi qarşısına alacaq. Azərbaycan sərhədlərində hərbi qarşıdurmaların olması bizim üçün də təhlükəlidir. İranla Azərbaycanı təxminən 760 km sərhəd uzunluğu ayırır. Bu çox böyük məsafədir. İrana qarşı hər hansı hərbi əməliyyatlar olarsa, bu məsafədə sərhədi mühafizə etmək çətin olacaq. Sərhəd boyu yaşayan insanlarımızın təhlükəsizlik problemi ortaya çıxacaq. Orada yaşayan milyonlarla soydaşımızın üzləşə biləcəyi problemləri də nəzərə alsaq, mənzərə tam aydın olar. Hesab edirəm ki, İran hakimiyyəti Suriya məsələsində Əsəd rejiminə dəstək verib, dövlətini və insanlarını təhlükəyə atmaqdansa, regionda marağı olan dövlət kimi post - Əsəd dövrünün Suriyasının qurulması danışıqlarına qatılmaqda maraqlı olmalıdır".

❑ **Etibar SEYİDAĞA**

# Neft ölkəsində acların üsyanı başladı

## Venesuelada xalq aclıqdan ayağa qalxdı: Manduronu xilas etmək mümkün olacaqmı...

**Venesuelada aprelin 19-da solçu prezident Nikolas Maduroya qarşı misli görünməmiş kütləvi etiraz aksiyası başlanıb. Aksiyada iki tələbə odlu silahla öldürülüb. Müxalifət tərəfdarları paytaxt Karakas və başqa şəhərlərin küçələrində keçirilən nümayişlərə "Bütün yürüşlərin anası" adını vermişdilər. Etirazçılar neftlə zəngin ölkəni acınacaqlı vəziyyətə salmış Maduronun hakimiyyətdən getməsini tələb edirdilər. "Röyters" agentliyinin verdiyi xəbərə görə, Maduronun çağırışı ilə iqtidar tərəfdarlarının da küçələrə tökülməsindən sonra izdihamlar yüz minlərlə insanla əhatələnib.**



Maduro bəyan edib ki, etirazların dinc görüntüsü arxasında müxalifətin çevriliş cəhdi və ölkədə sosializmə son qoymaq planları gizlənir. Müxalifət isə Maduronu diktatora çevrilməkdə və dinc vətəndaşlara silah qaldırmaqda ittiham edir. Qeyd edək ki, son bir ay ərzində Venesuela etirazlarında həlak olmuş insanların sayı 7-yə çatıb, 270 nəfər həbs olunub.

Müxalifət prezident Maduronu neftlə zəngin ölkənin vətəndaşlarını ac-yalavac vəziyyətə salmaqda ittiham edir. OPEC üzvü olan Venesuelada ərzaq və dərman qıtlığı yaşanır, inflyasiya üçrəqəmli göstəricilərə çatıb.

Xatırladaq ki, neft qiymətinin yüksək olduğu dövrdə gəlirləri artan Venesuelada 2014-cü ildə neft qiymətləri kəskin düşəndən sonra ərzaq qıtlığı və qiymətlərin kəskin bahalaşması baş verib. İndi bu ölkə vətəndaşlarından əksəriyyətinin vaxtaşırı ac qaldığı və ən adi dərmanları tapa bilmədiyi xəbər verilir.

Hazırda bir çox ölkələrin, xüsusən də Rusiya və Çinin Venesuelaya yardım etdiyi deyilir. N.Maduronun ölkəmizə səfəri zamanı Azərbaycanın da Venesuelaya ciddi miqdarda pul yardımı etdiyi deyilirdi. Lakin bu məlumat rəsmi təsdiqini tapmadı.

Bəs görəsən, bütün bu yardımlar Maduronu xilas edə biləcəkmi? Və maraqlı bir sual da yaranır; neft ölkəsi olan Azərbaycanda da oxşar durum yaşana bilərmi?

**Bu ölkənin iqtisadi durumunu və hazırkı vəziyyətə düşməsinin səbəblərini izah edən iqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, neftin qiymətlərinin enməsinin Venesuelaya digər ölkələrdən daha çox təsir etməsinin səbəbi bu ölkənin neftinin çox keyfiyyətsiz olması və birjada olan qiymətdən 6-7 dollar aşağı satılmasıdır:** "Bu gün dünya bazarında neftin qiyməti 52-53 dollar arasında dəyişirsə, Venesuela nefti 46-47 dollara satılır. Bu da ölkəyə daha az gəlir daxil olmasına səbəb olur. İşçilərin paylanmasına baxdıqda isə görürük ki, Venesuelada dövlət sektorunda çalışanların sayı özəl sektordan daha çoxdur. Bu da büdcəyə olan basqıları artıran amillərdən biridir. Böyük layihələrin demək olar ki , hamısı dövlət büdcəsi hesabına maliyyələşir. Dövlət büdcəsində gəlirlərin kəskin şəkildə aşağı düşməsi və kəsirin yaranması Venesuelada işsizliyə səbəb oldu və ciddi inflyasiyaya gətirib çıxartdı".

**N.Cəfərli vurğuladı ki, son iki ildə dünyada ən çox inflyasiyaya uğrayan 3 ölkədən biri Venesueladır:** "Bu da qiymətlərin kəskin qalxmasına, ərzaq qıtlığına səbəb oldu. Ərzaq qıtlığına gətirib çıxaran səbəblər də dövlətin fəaliyyətinin yetərsizliyindən baş verib. Çünki dövlət bu sahəyə nəzarəti öz əlindən buraxmaq istəmir, qiymətləri diqtə etmək istəyir. Bu da biznes qanunlarına zidd olduğu üçün özəl biznes bu sahədən tamamilə çəkildi. Sırf dövlət dükanları və dövlətin nəzarəti altında olan biznes şəbəkələri qaldı. Bu da qiymətlərin kəskin artmasına və mal qıtlığına səbəb oldu. Bu, Venesuelada baş verənlərə səbəb olan əsas amillərdir. Azərbaycanla paralellər apardıqda görürük ki, bir çox oxşarlıqlar var. Venesuelada da işçi qüvvəsinin təqribən 70 faizi dövlət sektorunda məşğulluq qazanıb, Azərbaycanda da muzdla çalışan 1,5 milyondan çox işçi var ki, onun təqribən 70 faizi büdcədən maaş alır. Bu da iqtisadi proseslər və büdcə üçün böyük yükdür. İkinci bir ciddi oxşarlıq neftin ölkə iqtisadiyyatında hegemon yer tutmasıdır. Üstünlüyümüz isə ondan ibarətdir ki, Azərbaycan daha kiçik ölkədir, əhalinin sayı daha azdır. Neft fondunda böyük neft bumu dövründə müəyyən vəsait toplandı ki, indiki şəraiti idarə etmək üçün həmin vəsaitlərin böyük rolu oldu. Venesuelada isə əsasən də Nikolas Madurodan öncə - Uqo Çaves dönəmində çox populist addımlar atıldı. Çox böyük xərclər qoyuldu, neftdən qazanılan gəlirlərin böyük bir hissəsi həmin layihələrə xərcləndi. Yığım həyata keçirilmədi. Ciddi fərqlərdən biri də budur. Digər tərəfdən, Azərbaycanda ticarətdə özəl sektorun payı Venesueladan daha çoxdur. Şükürlər olsun ki, qıtlıqla bağlı bir problem yaşanmır. Azərbaycanla Venesuelanı fərqləndirən ciddi amillərdən biri də seçki sisteminin fərqli olmasıdır. Venesuelada parlament müxaliflərin əlindədir. Bu ölkənin 4 bölgəsində şəhər idarəetməsi müxalifət partiyasının əlindədir. Burada da ciddi fərqlər var".

**N.Cəfərli Azərbaycanın Venesuelaya ciddi məbləğdə yardım etməsinə inanmadığını bildirdi:** "Ola bilər ki, kiçik məbləğdə yardım edilsin. Bu gün Venesuelaya əsasən iki ölkə dəstək verir, bu ölkələr Rusiya və Çindir. Hər iki ölkə Venesuelanın neft sektorunda böyük rol oynayır. "LUKoil", "Sidneft", "Rostneft"in böyük yatırımları var. Çin dövlət neft şirkətinin də Venesuelada böyük yatırımları var. Bu iki ölkənin köməyi olmasa, ümumiyyətlə, Venesuelada vəziyyət daha çətin ola bilərdi".

❑ **Nərgiz LİFTİYEVA**

# “Yanan bina işi”ndə sensasion gəlişmə- məhkəmə nəyə yenidən baxacaq?

## Bakı Apelyasiya Məhkəməsi 15 nəfərin ölümü ilə nəticələn yanğınla bağlı məhkəmənin yenidən keçirilməsinə qərar verib; cinayət işi üzrə məsuliyyətdən kənarda qalanların da cəzalandırılmasına hazırlıq gedir...?

**Aprelin 19-da Bakı Apelyasiya Məhkəməsində Binəqədi rayonunda yaşayış binasında baş verən yanğınla bağlı təqsirləndirilən şəxslərin apelyasiya şikayəti üzrə məhkəmə keçirilib. APA-nın məlumatına görə, hakim İlqar Murquzovun sədrlik etdiyi iclasda təqsirləndirilən şəxslərin vəkilləri vəsatətlə çıxış edərək məhkəmə iclas protokollarında bəzi imzaların olmadığını deyiblər və işin yenidən Bakı Ağır Cinayətlər Məhkəməsinə qaytarılmasını istəyiblər.**

Məhkəmə vəsatəti təmin edib və iş birinci instansiya məhkəməsinə qaytarılıb. Yada salaq ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə təqsirləndirilən, “Qlobal Stone” və “Global Constuction” MMC təsisçisi Miryusif Mahmudov 3 il rəhbər vəzifə tutmaq hüququndan məhrum edilməklə 8 il illik azadlıqdan məhrum edilib. Digər təqsirləndirilənlər - Uğur Bəşirov 5 il, Ələkbər Əsgərov, Qəzənfər Novruzov və Ədalət Rəcəbovun hər biri 4 il, Nizami Orucov isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum olunublar, Ağacavad Məmmədov və Akif Əlibəyova şərti cəza müəyyənləşib. Bundan başqa, dövlət ittihamçısı təqsirləndirilən şəxslərin əmlakının müsadirə olunmasını tələb etməsə də, məhkəmə öz təşəbbüsü ilə dövlətə dəyən 8,7 milyon manatlıq ziyanın qarşılığında həmin şəxslərin əmlaklarının müsadirə olunması haqda qərar çıxarıb. Zərərçəkmişlərin mülki iddiaları isə baxılmamış saxlanılıb. Uğur Bəşirovun atasından qalan evin, M. Mahmudovun torpaq sahələri, mənzilləri və digər təqsirləndirilənlərin əmlaklarının müsadirə olunmasına qərar verilib. İbtidai istintaq zamanı bu şəxslərin əmlaklarına həbs qoyulsa da, dəyəri müəyyən olunmayıb.



2015-ci il Avropa Oyunlarını açılışı ərəfəsində-mayın 19-da Azadlıq prospektində 16 mərtəbəli yaşayış binasında baş vermiş, 15 nəfərin ölümü ilə nəticələn yanğınla bağlı işin yenidən məhkəməyə qaytarılması sensasiya sayıla bilər. Əvvəla ona görə ki, “məhkəmə iclas protokollarında bəzi imzaların olmadığı” səbəbindən aylarla davam edən məhkəmə prosesinin üstündən xətt çəkilməsi inandırıcı görünmür. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçən proses ötən ilin yayında başlamışdı və bu ilin yanvarında yekunlaşıb. Təxminən 7 ay davam edən məhkəmə prosesində təqsirləndirən şəxslərin vəkillərinin həm istintaq, həm də məhkəmə araşdırmasına etirazları olub. Müdafiəçilər məhkəmə istintaqının yekunlaşmasına da etiraz edərək onların təqdim etdikləri sübutların və şahidlərin dindirilməsini tələb ediblər. Müdafiə tərəfi xüsusilə məhkəmə-tibbi, fiziki- kimyəvi, yanğın-texniki tədqiqatı aparan ekspertlərin məhkəməyə çağırılıb dindirilməsini tələb edirdilər. Onlar bildiriblər ki, tədqiqatlar səlahiyyətli şəxslər tərəfindən aparılmayıb, rəylər aydın deyil və ekspertiza qarşısında qoyulan suallar tam cavablandırılmayıb. Daha bir maraqlı məqam yanan bina işində ləğv olunmuş MTN və onun rəhbəri Eldar Mahmudovun məsuliyyət məsələsi idi. Məsələn, məhkəmənin qərarı ilə ən ağır cəzaya məhkum edilən “Global Stone” şirkətlərinin təsisçisi Miryusif Mahmudov məhkəmədə yanğına görə MTN-i ittiham etmişdi. O demişdi ki, yanğından əvvəl ondan MTN-çilər 300 min manat rüşvət istəyiblər. Rüşvət verilməyib və bundan sonra Azadlıq prospektindəki bina müəmmalı şəkildə yanıb. Ümumiyyətlə, aylarla davam edən məhkəmə prosesində bu işdə MTN-ə xeyli suçlamalar olub, hətta vəkillərdən binanın qəsdən yandırıldığı iddia edənlər də olub. Yanğınla bağlı digər qurumların da məsuliyyət məsələsi zaman-zaman gündəmə gətirilsə də, məhkəmə “yanğının əhatəsini” böyütmədi.

İşin yenidən məhkəməyə qaytarılması yanan bina ilə bağlı əsas hədəfə çıxan şəxslərdən biri, bəlkə də birincisi Binəqədinin icra başçısı Xaləddin İsgəndərovun personasına yenidən diqqəti artıracaq. Çünki binanın üzlənməsindən tutmuş digər işlərə qədər əsas işlərdə X.İsgəndərovun adı hallanırdı. Yanğına görə həbs edilən şəxslərdən olan Binəqədi rayon icra başçısının müavini olmuş Qəzənfər Novruzovun (4 il həbs cəzası verilib-"YM".) vəkili məhkəmə prosesində bu məsələyə də toxunmuşdu. Vəkil açıq demişdi ki, yanğın baş verən binada aparılan işlərə, görülən işlərin keyfiyyətinə və təhvil-təslimdə Qəzənfər Novruzov təqsirli bilindiyi qədər icra başçısı Xaləddin İsgəndərov da təqsirli bilinməlidir. M.Mahmudov da ifadələrinin birində yanan binanın üzlənməsi təklifinin Xaləddin İsgəndərovdan gəldiyini açıqlamışdı: **“Mən başqa məsələ ilə əlaqədar Xaləddin İsgəndərovun yanındaydım. Məndən soruşdu ki, ”bina üzləməyə materialınız var?" Mən də, ehtiyac varsa, bu işi görə biləcəyimizi dedim. Sonra o, birinci müavini Qəzənfər Novruzovu çağırdı, mənimlə tanış etdi".**

Təqsirləndirilən şəxslərin apelyasiya şikayətini təmin etməsi barədə daha bir iddia da var. Məsələn, azpolitika.az saytı “həbs olunanları buraxmaq istəyirlər” versiyasını da istisna etmir. Amma 15 nəfərin ölümü, 50 nəfərin isə ağır xəsarət aldığı işlə bağlı təqsdirləndirilənlərin buraxılması o qədər də real görünmür. Bəlkə söhbət onların buraxılmasından deyil, əksinə, iş üzrə məsuliyyətdən kənarda qalanların da cəzalandırılmasından gedir...?

❑ **“YM”**

# Baş nazir müavininin milyonçu xanımı “Forbes”in siyahısında - Zümrüd Rüstəmova kimdir?

## Xörək bişirə bilməyən xanımın Arkadi Dvorkoviçi idarə etdiyi deyilir; “Atam mənimlə fəxr edir, amma evə gec gələndə...”







**“Forbes” jurnalı Rusiya hakimiyyətində təmsil olunanların zəngin xanımlarının yeni siyahısını açıqlayıb. Siyahı 2016-cı il üçün dövlət rəsmilərinin gəlirləri haqda açıqlanan rəsmi deklarasiya əsasında yaradılıb.**

Ən varlı xanım Rusiya Dövlət Dumasının deputatı Aleksandr Nekrasovun xanımı Yelena Nekrasova seçilib. Onun illik gəliri 646 milyon rubldur. İkinci yeri rusiyalı senator Oleq Vorobyevin xanımı tutur-225,1 milyon rubl. İlk onluğu Kreml sözçüsü Dmitri Peskovun yeni toy etdiyi xanımı Tatyana Navka tamamlayıb.

Azərbaycan mediası 17-ci sırada qərarlaşan Rusiya baş nazirinin müavini Arkadi Dvorkoviçin xanımı Zümrüd Rüstəmovaya diqqət ayırıb. Ötən il Z.Rüstəmovanın rəsmi gəliri 60, 5 milyon rubl təşkil edib.

A.Dvorkoviçin xanımı haqda “Yeni Müsavat” bundan əvvəl də bir neçə dəfə yazıb. Ümumiyyətlə, bu xanım ara-sıra ölkə mətbuatında yada salınan personalardandır. Hələ bir neçə il əvvəl Z.Rüstəmovanın guya Azərbaycanda biznes qurmasına qeyri-rəsmi qadağa qoyulması barədə ölkə mətbuatında xəbərlər yayılmışdı. Bildirilirdi ki, Z.Rüstəmova Azərbaycanda metal və metallurgiya biznesi ilə məşğul olmaq istəsə də, buna razılıq verilməyib. Amma bu xəbərlər indiyədək təsdiq edilməyib. Onun personasına Kreml rəhbərliyində qısqanc münasibət olduğu da iddia olunur.

Onun soydaşımız olması barədə Azərbaycan mediası yenidən yazmağa başlayıb. Rusiyanın işgüzar xanımı kimi tanındığından Z.Rüstəmovanın Azərbaycanda doğulması barədə araşdırdığımız bütün mənbələrdə yenə də hər hansı xəbərə rast gəlmədik. Vikipediyada onun 1970-ci ilin sentyabr ayının 21-də Moskvada doğulduğu, orta məktəbi bitirən kimi Moskva İqtisad-Statistika İnstitutuna qəbul olduğu qeyd edilib.

Atası Xandadaş Rüstəmov 1947-ci ildə anadan olub. Atasının harada doğulması göstərilməsə də, Dağıstanda böyüdüyü qeyd edilib. Z.Rüstəmovanın anası Tatyana da biznesini bank sahəsində qurub və bir neçə bankın səhmdarlarından biri kimi göstərilib.

Z.Rüstəmova 1992-1995-ci illərdə atasının mehmanxana sahəsində fəaliyyət göstərən “Zümrüd” firmasına rəhbərlik edib. O, 1995-ci ildə Rusiya Əmlak Məsələlərinin İdarəedilməsi Dövlət Komitəsində işə başlayıb və üç il sonra artıq departament rəhbəri vəzifəsinədək yüksəlib. 1999-2000-ci illərdə Rusiya Federal Əmlak Fondu sədrinin müavini, 2000-2004-cü illərdə isə əmlak məsələləri üzrə nazir müavini olub. Dvorkoviçlə tanışlığı da məhz bu illərə təsadüf edib. Özünün dediyinə görə, o vaxt iqtisadi inkişaf naziri German Qrefin müavini olan Dvorkoviçlə elə nazirin kabinetində tanış olublar. 2000-ci ilin avqust ayının 11-də cütlük ailə həyatı qurub.

2004-cü ildə iqtisadi inkişaf nazirinin müavini olan Z.Rüstəmova dövlət qulluğunda xidmətini başa vurub və biznesə üz tutub. İşlədiyi müddətdə dövlət institutları rəhbərləri və oliqarxlarla ələ qurana Z.Rüstəmova 2004-cü ildə yaxından tanıdığı biznesmen Vladimir Raşevskinin rəhbərlik etdiyi Sibir Kömür Energetikası Kompaniyasında vitse-prezident olmağa razılıq verib. Xanım-biznesmen 2006-cı ildə bank sektorunda da özünü sınamağa qərar verib. Həmin ilin mayında o, Rusiya İnkişaf Bankının Direktorlar Şurasına daxil olub. Elə həmin il “Polumetal” ASC-nin baş direktorunun müavini olub. Sonra isə Maqnitoqorsk Metallurgiya Kombinatının da Direktorlar Şurasına seçilir. Bundan başqa, Z.Rüstəmova “Şeremetyev Beynəlxalq Aeroportu” ASC-də, “Xantı-Mansi Bankı”nın və qızılçıxarma üzrə qabaqcıl olan “Plyus Zoloto” nun da idarəetməsində əsas söz sahiblərindən birinə çevrilib. Z.Rüstəmova Rusiyanın ən tanınmış iş adamlarından olan dağıstanlı oliqarx Süleyman Kərimovla bir neçə sahədə biznes ortağıdır.

Z.Rüstəmova 2 oğul anasıdır. Maraqlıdır ki, Azərbaycan kökənli hesab olunan bu xanım uşaqlarına rus çarlarının - Vladimir və Pavel adlarını verib. Dvorkoviçin rəqibləri hesab edirlər ki, ərinin hətta siyasi qərarlarını belə xanımı verir və ailədə əsas idarəçi odur.

Z.Rüstəmova müsahibələrinin birində deyib ki, xörək bişirə bilmir və bu işi sevmir. Əri isə əksinə, hətta ilk oğlu Pavel olanda onun altını dəyişməyi belə bacarırmış. Evə gec gəlməyinə valideynlərinin narazılıq etdiyini deyən Z.Rüstəmovanın bu sözlərinə də diqqət çəkək: “Atam təbii ki, mənimlə fəxr edir. Amma zaman-zaman evə gec gəldiyimdən mənə ”bax, dərbəndli qız heç vaxt belə edə bilməzdi" deyir".

❑ **ORXAN**

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017

**İntihar hallarının sayı durmadan artır. Hətta bəzən elə olur ki, bir gündə 3-4 intihar xəbəri gəlir. Artıq televiziyalar intiharlarla bağlı informasiyaları gizlədir. Yəqin ki, bu da televiziyalara verilən göstəriş əsasında həyata keçirilir. Ancaq belə xəbərləri gizlətmək təəssüf ki, intiharların qarşısını almağa kömək etmir.**

# "İntihar baharı" - ölkədə canına qıyanların sayı artır

## Qabil Abbasoğlu: "Medianın bu məsələdə günahlandırılmasını vəziyyətdən doğru çıxış yolu tapa bilməyənlərin mövqeyi hesab edirəm"

**Psixoloq Aygün Ağabalayeva "Axar TV"yə müsahibəsində intihar haqda informasiyaları intihara səbəb olan əsas amillərdən biri kimi göstərib:** "Hər yaş kateqoriyasında olan insanlar bu məlumatları oxuyur. Ona görə də insanların psixoloji durumu nəzərə alınmalıdır. Bu cür məlumatların çoxluğu onlarda şüuraltı rahat bir çıxış yolu kimi formalaşır. Çünki hər insan bu mövzuya eyni yanaşmır".

Maraqlıdır, doğrudanmı psixoloqların dediyi kimi, intiharların artmasında medianın da günahı var?

İntihar xəbərlərinin daha çox yer aldığı saytlardan biri olan **lent.az saytının baş direktoru, jurnalist Qabil Abbasoğlu** burada medianın heç bir günahı olmadığını və belə bir fikri bir psixoloqun səsləndirməsinə təəssüfləndiyini dedi: "O fikrin qətiyyən əleyhinəyəm ki, mətbuat xəbəri verməsə, intihar halları azalacaq. Xüsusilə də təəssüf edirəm ki, bu fikri bir mütəxəssis, psixoloq deyir. Biz baş vermiş intiharlar haqqında məlumat yayırıq, intiharı təbliğ edən materiallar vermirik. Xəbər əhəmiyyəti daşıyan, müəyyən dərəcədə mənası və hekayəsi olan intihar hadisələrini veririk. Əslində vermədiyimiz intihar hadisələri də var. Mən medianın bu məsələdə günahlandırılmasını vəziyyətdən doğru çıxış yolu tapa bilməyən insanların fikirləri hesab edirəm. İntiharların qarşısının alınması ilə bağlı bir mütəxəssis kimi danışa bilmərəm. Amma qarşı tərəfin fikirlərinə cavab xarakterli bunu söyləyə bilərəm ki, bunun üçün mütəxəssislərimiz də, psixoloqlarımız da ayrı-ayrı dövlət qurumlarının iştirakı ilə konkret proqramlar hazırlamalı, təbliğat işləri aparılmalıdır. Xüsusilə məktəblərdə, ucqar rayonlarda bu məsələ ilə bağlı planlaşdırılmış və ciddi bir iş aparılmalıdır. Biz yalnız statistikanı mətbuata çıxarırıq və çox təəssüf edirəm ki, bu statistika da çox acı bir statistikadır. Amma bu işin həlli medianın bu cür xəbərləri dərc etməsindən asılı deyil".



Qeyd edək ki, bahar fəslində intihar hadisələri qışa nisbətən daha çox olur ki, burada da psixoloji amillər əsas rol oynayır. İsveçdəki Uppsala Universitetinin psixiatriya professoru Fotis Papadopoulos yaz aylarında intiharların sayının qışa nəzərən 20-60 faiz artıq olduğunu bildirib. Amerikalı alim Norman Roşendal isə mövsümi dəyişikliklərin insanlar üzərində təsirlərini araşdırarkən, belə bir nəticəyə gəlib ki, mövsümi dəyişikliklər insanlara iki müxtəlif formada təsir edir: birincisi, insanların böyük bir qismi yaz və yay aylarında daha enerjili, sosial, qışda isə depressiv, halsız və tənbəl olur. Digər tərəfdən isə bəzi insanlarda xüsusilə yaz aylarında enerji azlığı, yorğunluq, diqqət pozuntusu, bədbəxtlik hissi, sıxıntı, yuxusuzluq, iştah dəyişiklikləri müşahidə edilir.

Moderator.az xarici mediaya istinadən bildirir ki, 12 min intihar qurbanı ilə bağlı məlumatlar meteoroloji məlumatlarla birlikdə araşdırılıb. Bu göstəricilər serotonini hərəkətə gətirərək xəstənin daha fəal və aktiv olması və intihar düşüncəsini həyata keçirməyə cəhd etməsini ifadə edən nəzəriyyənin təsdiqi kimi şərh oluna bilər. Bu barədə müxtəlif nəzəriyyələr də var. Nəzəriyyəyə görə, yaz aylarında tozcuqlar immun sistemini hərəkətə gətirərək beyində dəyişikliklərə yol açır. Tozcuqlarla intihar arasında əlaqə qurulması bəzilərinə şişirdilmiş gəlir. Müşahidələrə görə, immunitet hüceyrələrinin aktivləşməsi və intihar düşüncəsi arasında da bir əlaqə olduğu məlum olub.

Ümumiyyətlə, Ümumdünya Səhiyyə Təşkilatı dünyada hər 40 saniyədə 1 intiharın, hər 3 saniyədə 1 intihara təşəbbüsün baş verdiyini, son 45 ildə intiharların 60 faiz artdığını və intiharın bütün dünyada ilk 10 ölüm səbəbi arasında göstərildiyini bildirir. Bütün ölümlərin təqribən 1 faizini intiharlar təşkil edir.

❑ **Günel MANAFLI**

# Mühacir biznesini araşdırmaq üçün ortaq komissiya-müxalifətdən reaksiyalar



## İsa Qəmbər və Arif Hacılının ardından Əli Kərimli bu gün bu məsələ ilə bağlı prokurorluqda ifadə verəcək; ittihamlar müxalifəti bir araya gətirə bilərmi?

**Son aylarda Azərbaycan iqtidarının ölkəni tərk edən mühacirlərlə bağlı ciddi hərəkətə keçdiyi görünür. Bu istiqamətdə artıq bəzi addımlar da atılıb. Son iki ayda Azərbaycanda siyasi partiya rəhbərlərinin "saxta sənəd alveri" ilə bağlı Baş Prokurorluğa çağırılmaları halları artıb.**

İki ay öncə ölkənin ana müxalifət partiyalarından sayılan Müsavatın keçmiş başqanı İsa Qəmbər və hazırkı rəhbəri Arif Hacılı prokurorluqda ifadə verdilər. Aprelin 21-də isə AXCP sədri Əli Kərimli, onun müavini Gözəl Bayramlı və partiyanın Təşkilat Şöbəsinin rəhbəri Saqif Qurbanov prokurorluğa çağırılıblar.

Hakimiyyət tərəfindən olan bu cür təzyiqlərə baxmayaraq, heç bir siyasi qurum konkret nə qədər üzvünün mühacirətə yollandığı barədə açıqlama vermir. Bir faktı da qeyd edək ki, Azərbaycan hökuməti bəzi siyasi qurumların vətəndaşları, hətta partiya üzvü olmayan insanları belə yüksək pul qarşılığında mühacirətə yolladıqları barədə səslənən iddialardan sonra hərəkətə keçib.

İqtidarın hərəkətə keçməsindən sonra üzvləri mühacirətə gedən partiyaların təzyiqləri önləmək, bir növ üzərlərindəki "ləkə"ni təmizləmək üçün ortaq komissiya yaratmaları ilə bağlı fikirlər meydana çıxıb.

**Üzvlərindən mühacirətdə olan partiyalardan ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, hər bir vətəndaşın yaşadığı ölkəni tərk etmək hüququ var:** "Bunun nəyi araşdırılır? Məgər konstitusiya ilə bunlar qadağan olunur? Mühacirət adı altında cinayət var? Birləşmiş Millətlər Təşkilatının belə mühacirət komissiyası var. Hətta bəzi ölkələrdə mühacirətə gedənlərin qarşısı alındığına görə BMT həmin ölkələrə sanksiyalar tətbiq edib, mühacirləri qəbul etməyən bəzi ölkələr barəsində də bu cür qərar verilib. Azərbaycanda siyasi partiya üzvlərinə qarşı münasibət göz önündədir. Onlara iş vermirlər, özləri və qohumları təzyiqlərə məruz qalırlar. Belə bir şəraitdə ya siyasi fəaliyyəti dayandırmaq, ya da ölkəni tərk etmək qalır. İnsanlar da bəzən siyasi fəaliyyətlərini dayandırmaq istəmirlər, bunun üçün də üçüncü ölkəyə getmək məcburiyyətində qalırlar. Dinimizdə mühacirət Allahın əmirlərindən biridir. Quranda var ki, əgər öz ölkənizdə dininizi inkişaf etdirə bilmirsinizsə, başqa yerə köçün, Allah-Təala orada sizin üçün hər şeyi hazırlayıb. Bir insan demokrat kimi nəfəs almaq istəyir, amma Azərbaycanda bu mümkün deyil. Demokrat kimi o insanın başqa ölkədə yaşamaq haqqıdır. Azərbaycan başdan-ayağa qadağalar ölkəsidir. Siyasi partiyalara münasibət, siyasi mühit göz önündədir. Siyasi partiyaların mühacirətlə bağlı komissiya yaratmasına gəlincə, buna nə ehtiyac var? Konstitusiya ilə mühacirətə getmək qanunsuzdur? Anlamıram ki, prokurorluq nəyin araşdırmasını aparır? Burada siyasi partiyaların rolunu qeyd edə bilərəm. Məsələn, bizim partiyadan bir üzv mühacirətə gedir. Getməmişdən əvvəl gəlib bizə deyir ki, mənə təzyiqlər olur, bunları sübut edir, həyatının təhlükədə olduğunu, işdən çıxarıldığını, qohumlarının təqib olunduğunu deyir. Belə bir vəziyyətdə üzvlərimizə arayış veririk ki, doğrudan da bizim partiyanın üzvüdür, ölkəmizdə müxalifətçilərə düşmən münasibəti var. Hətta YAP fəalları dəfələrlə müxalifətçiləri xalqın düşməni adlandırıblar. Əgər düşmən adlandırırsansa, demək, düşmən münasibətin də var. Biri bu münasibəti görürsə, demək, oranı tərk etməlidir. Müxalifətin bununla bağlı bir araya gəlməsi qətiyyən yolverilməzdir, bu, qanunlara da ziddir. Prokurorluq partiya rəhbərlərini ifadə verməyə çağırır. Hansı motivlə çağırdığı isə məlum deyil. Mühacirətə getmək azadlıq hüququmdursa, o zaman prokurorluq bu hüququ əlimdən çağırıb alacaq? Azərbaycanda olan mövcud durum, müxalifətə olan münasibət ona imkan verir ki, istənilən müxalifətçi gedib Avropada sığınacaq alsın".

**AXCP və Milli Şuranın sabiq funksioneri Sahib Kərimli hesab edir ki, ortaq komissiyanın yaradılması bu istiqamətdə müsbət effekt verər:** "AXCP və Müsavat hakimiyyətin iddialarına qarşı ortaq komissiya yaratsa, həm təzyiqləri önləyər, həm də cəmiyyətdə yaranmış suallara aydınlıq gələr. Bu həm də müxalifətin əməkdaşlıq imkanlarını genişləndirər. Mühacirətə getmək, başqa ölkələrdə yaşamaq vətəndaşların hüququdur. Onu məhdudlaşdırmaq olmaz".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017

# Aprelin 26-da prokuror Əli İnsanova cəza istəyəcək

## Sabiq nazirin tez yekunlaşan məhkəməsi yeni iddialar meydana çıxarıb

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun məhkəməsi sona çatmaq üzrədir. Aprelin 19-da keçirilən prosesdə sabiq nazirin məhkəmə istintaqı başa çatıb. Aprelin 26-da prokuror Ə.İnsanova cəza istəyəcək.**

Göründüyü kimi, aprelin 7-dən məhkəməsi başlayan sabiq nazirin prosesi cəmi 20 gün çəkib. İndiyə qədər keçirilən üç məhkəmədə Ə.İnsanovun prosesin uzanmasında maraqlı olmadığı açıq şəkildə göründü. Hətta ilk prosesdə sabiq nazir 5 dəqiqəlik çıxış alaraq, sonrakı iclaslarda danışmayacağını bəyan etdi. Onun məhkəməsinin tez yekunlaşması yenə müxtəlif iddialar meydana çıxarıb. Belə fikirlər var ki, mayın ya 10-da, ya da 28-də gözlənilən əfvdə, nəhayət, İnsanov dəmir barmaqlıqlarla vidalaşa bilər.

Düzdür, sabiq nazirin indiyə qədərki üç məhkəməsində onunla yumşaq davranıldığını demək mümkün deyil. Hətta son məhkəməsində bu daha açıq şəkildə göründü, zərərçəkmiş şəxs qismində prosesdə iştirak edən Anar Məmmədovla bağlı kifayət qədər şübhəli məqamlar olsa da, hakim bunların üstündən keçdi, müdafiə tərəfinin vəsatətlərinin heç biri isə təmin olunmadı.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı sabiq nazirin məhkəməsini yaxından izlədiklərini qeyd etdi:** "Biz bu məhkəməni ciddi şəkildə nəzarət altında saxlayırıq. Hələlik məhkəmənin işinə müdaxilə etmək biz tərəfdən düzgün olmazdı. Amma ümidimizi itirmirik ki, bu məhkəmənin çox uzanmaması sonda İnsanovun azadlığa buraxılması ilə nəticələnəcək. Çünki orada baş verən proseslər, dinləmələr haradasa bizdə ümid yaradır ki, Əli İnsanov əfv oluna bilər, yaxud yüngül cəza ilə azad olunar. Amma yenə də qəti söz demək çox çətindir. Bu məhkəmə heç də əvvəlki məhkəməsindən fərqlənmir. Amma hər halda, 11 illik cəzasını çəkməsinə, yaşına, Azərbaycan və dünya təbabətinə verdiyi töhfələrə, ən əsası 11 illik cəzası müddətində həbsxanadakı davranışlarına görə biz belə bilirik ki, onun azadlığa buraxılması labüd olacaq. Son məhkəməsində kifayət qədər şübhəli hallar, sübuta yetirilməyən faktlar var idi. Amma bunların heç biri nəzərə alınmasa da, bizdə belə inam yaradır ki, bu məhkəmə Əli İnsanovun xeyrinə bitəcək. Düzdür, ilk prosesdə Əli İnsanov yenə də kifayət qədər sərt danışdı. Amma bu artıq onun xüsusiyyətidir. Birinci məhkəmələrində də elə çıxışlar edirdi. Əli İnsanov özünü müdafiə etməyə qadir bir şəxsdir. Bir nüansı da qeyd edim ki, son sözündə onun deyəcəklərinin də çox əhəmiyyəti ola bilər".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı sabiq nazirin əfv olunacağına inanmır:** "İnsanovu əfv etmək istəsəydilər, ona qondarma cinayət işi qaldırmazdılar. Məhkəmə işi araşdırmır, heç ehtiyac da yoxdur. Ona görə ki, yazılmış ssenaridən kənara çıxmağa heç ehtiyac da duyulmur. Yəni zaman, araşdırma tələb olunmur. Tez yekunlaşmanın səbəbi budur. Bunu məhkəmə prosesi adlandırmaq olmaz. Sadəcə, Ədliyyə Nazirliyinin cəzaçəkmə müəssisəsinin "aktyorlarının göstərdiyi bir tamaşa" idi".



Qeyd edək ki, Ə.İnsanov 2005-ci ilin oktyabr ayında həbs edilib. O, dövlət vəsaitlərinin mənimsənilməsində və dövlət aktivlərinin qanunsuz özəlləşdirilməsinin təşkilində ittiham olunub. 2007-ci ilin aprel ayında Ə.İnsanov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan edilməklə, 11 il müddətinə azadlıqdan məhrum olunub.

Ötən il avqustun 24-də Ə.İnsanova Cinayət Məcəlləsinin (CM) üç maddəsi ilə ittiham irəli sürülüb. Sabiq nazir CM-in 234.1-ci (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama), 315.2-ci (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etməklə müqavimət göstərmə, xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar ona və ya onun yaxın qohumlarına qarşı belə zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, bu maddədə göstərilən şəxslərə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi, eyni əməllər təkrar törədildikdə) maddələri ilə ittiham olunur. Ötən ilin oktyabrında 11 illik əsas cəzası başa çatan sabiq dövlət məmuru əlavə maddələrlə həbsdə saxlanılıb. Onu irəli sürülən 3 maddə üzrə 7 ilə qədər cəza gözləyir.

❑ Cavanşir ABBASLI

# Özəl kredit büroları nə iş görəcək?

## Vahid Əhmədov: "Ödənilməyən məbləğlərin geri qaytarılmasını sivil qaydada həyata keçirmək üçün bu büroların rolu önəmli olacaq"



**Artıq banklar kredit verərkən özəl kredit bürolarının məlumatlarına əsaslanacaq.**

Riskləri önləmək üçün daha etibarlı məlumatlar hazırlayacaq ilk belə kredit bürosu təsis edilib.

Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktorunun müavini Asim Zülfüqarov təsis tədbirində bildirib ki, hazırda Mərkəzləşdirilmiş Kredit Reyestrində Azərbaycanda yetkin əhalinin cəmi 36 faizinin kredit tarixçələri cəmlənib. Yeni büronun yaradılması ilə bu rəqəm xeyli arta və problemli kreditlər azala bilər.

Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı daimi nümayəndəsi Aliyə Əzimova isə yeni özəl maliyyə qurumunun xarici investorlar üçün vacib istinad mənbəyi ola biləcəyinə diqqət çəkib. Kredit büroları bank və digər borcverən təşkilatların borc almaq istəyən şəxslərin əvvəlki borclarının tarixi, ödəmə statistikası, maliyyə intizamı və borc almaq arzusunda olanların gəlirlərinin əks olunduğu məlumat bazasıdır. Kredit bürolarında borcalanların məlumatlarının təhlili aparılacaq və bunun əsasında müştəriyə kreditin verilib-verilməyəcəyi müəyyənləşdiriləcək.

Bəs görəsən, özəl kredit büroları iqtisadiyyata və bank sektoruna hansı müsbət yeniliklər gətirəcək?

**Bu sualı cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, kredit büroları ilə bağlı məsələ Azərbaycanda son iki ildə daha çox müzakirə olunmağa başladı:** "Xüsusilə maliyyə bazarlarında müşahidə olunan gərginlik, bankların kredit portfeli ilə bağlı yaranmış ciddi narahatlıqlar, eyni zamanda bankların həyata keçirdiyi kreditləşmə siyasətinin yanlışlığı haqqında dolğun qənaətin formalaşması ölkədə məhz kredit bürolarının yaradılması fikrini daha da önə çəkdi. Qeyd edək ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kredit büroları uzun müddətdir ki, tətbiq olunan təcrübələrdən biridir. Kredit bürosu ilk növbədə məlumat bazası kimi nəzərdə tutulmalıdır. Ölkədə yaşayan və fəaliyyət göstərən vətəndaşların, rezidentlərin, qeyri-rezidentlərin, hüquqi və fiziki şəxslərin kredit qaytarma qabiliyyətini müəyyənləşdirən mexanizmin bir qoludur. Kredit büroları qeyd etdiyimiz şəxslər haqqında məlumatları toplayırlar. Bu məlumatlara əvvəlki dövrlərdə götürülmüş kreditlər, onların geri qaytarılma qrafikinə necə əməl edilməsi, digər borc öhdəliklərini necə yerinə yetirməsi, kommunal xidmətlər üzrə borc öhdəliklərinin necə icra olunması, hansı qrafik üzrə ödənilməsi ilə bağlı məlumatlar daxildir. Həmin dövrdə, kredit üçün müraciət edilən anda müraciət edən subyektin borclanma sferası, fəaliyyətdə olduğu biznes sferasının vəziyyəti, həmin insanların leqal gəlirləri də nəzərə alınır".

**İqtisadçının sözlərinə görə, bu məlumatlar toplanarkən, subyektin illeqal gəlirləri nəzərə alınmır:** "Ölkə əhalisinin illeqal gəlirləri də mövcuddur. Bu məlumatlar kredit bürolarının topladığı məlumatlar sırasına daxil olmayacaq. Sahibkarın və ya vətəndaşın qeyri-leqal gəlirləri onun kredit qaytarma qabiliyyətinə müsbət təsir göstərə bilməyəcək. Kredit büroları bu məlumatların sintez edilməsi, üzv banklara üzvlük haqqı qarşılığında satılması funksiyasını yerinə yetirəcək. Kredit bürolarının fəaliyyəti əslində ötən dövrlərdə verilmiş kreditlər üçün heç bir əhəmiyyət daşımır. Artıq kredit büroları fəaliyyət göstərdiyi andan etibarən əgər banklar bu büro ilə əməkdaşlıq edirsə, ondan aldığı məlumatlar hesabına kredit müraciətini daha dolğun qiymətləndirə biləcək. Vətəndaşın kredit qaytarma qabiliyyətini daha düzgün müəyyənləşdirərək, onun maddi durumuna uyğun şəkildə kreditləşməni həyata keçirəcək və ya ümumiyyətlə kredit təklif etməyəcək. Bütövlükdə götürəndə bu proses özü orta və uzunmüddətli dövrdə Azərbaycanda bank sektorunda, xüsusilə kredit portfelində sabitliyə , eyni zamanda sağlamlığın təmin olunmasına pozitiv təsir göstərəcək".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bildirdi ki, özəl kredit bürolarının yaradılması ilə bağlı qanun layihəsi uzun müddətdir qəbul olunub:** "Məndə olan məlumata görə, artıq belə kredit büroları formalaşıb. O kredit bürolarının yaradılmasında əsas məqsəd vaxtı keçmiş kreditlərin, əmanətçi ilə bank sahibi arasında olan münasibətləri müəyyən qədər sivil qaydada həll etməyə yönəlib. Bu, maliyyə bazarına müsbət təsir etməlidir. Dünya bazarında belə təcrübələr çoxdur. Məndə olan məlumata görə, bir neçə bank birləşib belə bir büro yaradıblar. Ödənilməyən məbləğləri geri qaytarmaq üçün, bu prosesi sivil qaydada həyata keçirmək üçün bu büroların rolu önəmli olacaq. Bilirsiniz ki, hazırda kreditlərlə bağlı Azərbaycan məhkəmələrində 280 minə yaxın iş var. Bütün bunları tənzimləmək üçün belə büroların yaradılması qanunla təsbit olunub".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017

# İlhamə Quliyevanın sevimli gödəkçəsi girovluqda - sensasion araşdırma

## Nadir xəzdən olan gödəkcə 15-20 min manat civarında qiymətləndirilir, korifey sənətkarın oğulluğu isə deyir ki...

**Mərhum korifey sənətkar İlhamə Quliyevanın sevə-sevə geyindiyi bahalı gödəkçəsi ilə bağlı maraqlı məlumat yayılıb. Xəbərlərə görə, İ.Quliyeva dünyasını dəyişəndən sonra onun oğulluğu Orxan Nadirov həmin gödəkçəni girov qoyub və min manat pul alıb.**

İ.Quliyevanın həmin gödəkçəsi dünyaca məşhur "GreekFurs" firmasının istehsalıdır. Bu şirkət eksklüziv və xüsusi bəslənmiş gəmirici növlərinin xəzlərindən gödəkçələr hazırlayır. Yunanıstanda yerləşən və ABŞ xəz-dəri şirkətləri ilə əlaqəli çalışan "GreekFurs"un qiymət siyasəti də fərqlidir. Şirkətin saytında eksklüziv gödəkçələrin qiymətləri də növündən asılı olaraq 1400 avrodan 50 min avroya qədər dəyişir.

İ.Quliyevanın vaxtilə sevə-sevə geydiyi gödəkçənin qiyməti haqda dəqiq məlumat yoxdur. Müraciət etdiyimiz xəz mütəxəssisləri həmin gödəkçənin bahalı mal olduğunu təsdiqlədilər. Bildirdilər ki, belə xəzlərdən olan gödəkçənin hazırda Azərbaycanda bazar qiyməti 15-20 min manatdır. Mərhum sənətkarla vaxtilə yaxın olmuş şəxslər isə bildirirlər ki, həmin gödəkçəni ona hədiyyə veriblər. İ.Quliyeva da bahalı xəzdən olan həmin gödəkçənin ona hədiyyə verilməsini gizlətməyib, konkret ad çəkməklə "gödəkçəni mənə alıb" deyirmiş. Yayılan xəbərdə bahalı gödəkçənin lombardlardan birində olduğunu öyrənəndən sonra ilk öncə Orxan Nadirovla əlaqə saxladıq. O.Nadirovun yayılan xəbərə münasibəti belə oldu: "Səhv məlumatdır, gödəkçə evdədir, şəklini çəkib vathcapla yollayacağam".

Bununla belə, korifey sənətkarın məşhur gödəkçəsinin girovluqda olub-olmamasını aydınlaşdırmaq üçün lombardlarla əlaqə saxladıq. Bir neçə saatlıq araşdırmalardan sonra öyrəndik ki, digər qiymətli əşyalarla yanaşı, bahalı geyimlərə də lombard krediti verən bir ünvan var. Həmin ünvan Yasamal rayonu, Nazim Hikmət küçəsində yerləşir. Qeyd edilən küçədəki lombardla əlaqə saxladıq. Oradan belə bir cavab aldıq ki, həqiqətən də lombarda Orxan Əhmədağa oğlu Nadirov xəz gödəkçə girov qoyub.




AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 08272618
Soyadı NADIROV
Adı ORXAN
Atasının adı ƏHMƏDAĞA OĞLU
Doğulduğu yer və tarix AZƏRBAYCAN,BAKI şəh. 05.06.1985



"Xəz gödəkçə haqda siz məlumat verəndən sonra araşdırdıq. Lombarda 2016-cı ilin oktyabrında bir qadınla bir cavan oğlan gəliblər. Onlar xəz gödəkçəni qoyub kredit alıblar. Gödəkçə 1 ay müddətinə qoyulub, amma sonradan gəlib onu geri almayıblar" - deyə lombardda çalışan bir xanım söyləyib. Az sonra redaksiyamızla əlaqə saxlayan və özünü lombardın rəhbərlərində biri kimi təqdim edən şəxs deyib ki, xəz gödəkçənin İlhamə Quliyevaya məxsus olmasını bildiklərindən məmnun olublar: "Bizə məlumat verdiyiniz üçün təşəkkür edirik. Korifey sənətkarımız İlhamə Quliyevaya böyük hörmətimiz olub və bu gün də var. Onun xəz gödəkçəsi girov qoyulub və ardınca gələn olmayıb. Həmin gödəkçə bizdədir".

**Bəs gödəkçənin gələcək taleyi necə olacaq? Satışa çıxarılacaq yoxsa başqa planlar var? Lombard rəsmisi deyir ki, ümumi məsləhətdən sonra belə qərara gəliblər ki, mərhum korifey sənətkarın gödəkçəsini satışa çıxarmasınlar:** "Həmin gödəkçəni yadigar olaraq saxlayacağıq. Əgər nə vaxtsa İlhamə Quliyevanın ev muzeyi açılarsa, həmin gödəkçəni ora təhvil verə bilərik. Hazırda gödəkçə bizim əmlakımızdır".

Qeyd edək ki, İ.Quliyeva dünyasını dəyişəndən sonra onun çoxsaylı əmlakları uğrunda yaxınları məhkəmə çəkişməsinə başlamışdılar. Vərəsəlik hüququ ilə bağlı bacıları Gülbahar və Aidə Quliyevalar və özünü onun oğlu kimi təqdim edən Orxan Nadirov mərhum sənətkarın mülkləri, əmlakı və digər qiymətli əşyalarına sahib olmaq üçün Yasamal Rayon Məhkəməsində iddia qaldırıblar. Məhkəmə O.Nadirovun iddiasını təmin etməyib. Onun vərəsəlik hüququnun tanınması ilə bağlı iddiasına rədd cavabı verib. Məhkəmə hesab edib ki, İlhamə Quliyevanın bütün əmlakı bacılarının arasında bölünməlidir. Çünki Orxanın İlhamə Quliyevanın oğlu olması və ya vərəsə elan edilməsi ilə bağlı hər hansı rəsmi sənəd və vəsiyyətnamə yoxdur, heç vaxt olmayıb. İ.Quliyeva 2016-cı il fevralın 25-də dünyasını dəyişib. Bundan sonra onun mirasına həbs qoyulmuşdu.

Xatırladaq ki, İ.Quliyevanın Mərdəkanda və Buzovna yolunun üstündə yerləşən iki bağı, 50 sot sənədli torpağı, Bakının mərkəzində 4 evi var. Bundan başqa, onun "İnfiniti" və "Luimizin" markalı 2 avtomobili, çox miqdarda da qızıl-zinət əşyaları, bahalı geyimləri qalıb.

❑ **E.HÜSEYNOV**



# Azərbaycanlıların neçə faizi dindardır-sorğu

Türkiyənin "Barem" araşdırma mərkəzi və "WİN Gallup İnternational" beynəlxalq sorğu şirkəti dünyanın müxtəlif ölkələrində 66 minə yaxın şəxsin rəyini öyrənib. Təşkilatçılar respondentlərdən dindar olub-olmadıqlarını soruşublar.

Azərbaycan 67 ölkə arasında 53-cü sıradadır: sorğuya qatılan azərbaycanlı respondentlərin 35%-i dindar olduğunu bildirib.

Sorğuya əsasən, ən dindar adamlar Tailandda yaşayır. Novator.az-ın məlumatına görə, bu ölkədə respondentlərin 98%-i dindar olduğunu bəyan edib.

İkinci yerdə Nigeriya (97% özünü dindar sayır) gəlir.

Hindistanda əhalinin 94%-i özünü dindar sayır.

Pakistanda əhalinin 93%-i dindar olduğunu bildirib.

Ermənistanın göstəricisi 92%-dir.

İran 23-cü sırada yer alır: respondentlərin 77%-i dindar olduğunu bəyan edib.

Türkiyəlilərin 74%-i özünü dindar sayır.

Rusiyada özünü dindar hesab edənlər 61%, ABŞ-da 56%, Ukraynada 53%, Fransada 45%, İsraildə 39%, İspaniyada 37%-dir.

Almaniyada əhalinin 34%-i, Böyük Britaniyada 27%-i, Yaponiyada 13%-i özünü dindar sayır.

Sonuncu - 67-ci sırada Çin dayanır. Bu ölkədə respondentlərin 67%-i ateist olduğunu, 23%-i dindar olmadığını bildirib. Özünü dindar sayanlar 9%-dir.

# QİÇS-ə yoluxanlar nikaha daxil ola bilərmi?

## Seyfəddin Əsəd: "Bu şəxslər nikaha girə bilər, əgər..."




**Ötən ay ölkədə nikaha daxil olmaq istəyən 9 min 471 nəfər şəxsin icbari tibbi müayinəsi həyata keçirilib. Onlardan 9-da QİÇS aşkarlanıb.**

Qeyd edək ki, "Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Qanunun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktları təsdiqi ilə əlaqədar, 1 iyun 2015-ci il tarixindən etibarən nikaha daxil olmaq istəyən vətəndaşlar mütləq tibbi müayinədən keçməlidirlər. Müayinə zamanı xəstəlik aşkarlanan cütlüklərə və müvafiq mərkəzlərə xəstəlik barəsində geniş məlumat verilir.

Ötən il ərzində evlənmək üçün məcburi müayinədən keçən 85 nəfərdə QİÇS xəstəliyi aşkar edilmişdi. Bu da kifayət qədər böyük rəqəmdir. Bəzi ucqar bölgələrdə rəsmi nikaha düşməyən yeni ailələri də nəzərə alsaq, mövcud rəqəmin daha çox olduğunu demək olar.

Bəs QİÇS-ə yoluxanlar ailə həyatı qura, sağlam övlad dünyaya gətirə bilərmi?

Ekspertlər qeyd edir ki, QİÇS-ə yoluxanlar əsasən narkotik istifadəçiləridir. Xəstəliyə yoluxanların da əksəriyyəti Bakı şəhərində aşkarlanır. Bölgələrdən isə daha çox Masallı, Lənkəran, Göyçay, Astara kimi rayonlarda bu xəstəlik yayılmağa başlayıb. Xəstəliyin 4 mərhələsi olur. Bədən xəstəliyə yoluxduqdan 20 gün sonra ona reaksiya verir. Xəstəlik aşkar edildikdən sonra müalicələrə başlanılsa da, bir müddət sonra virus yenidən üzə çıxmağa başlayır. Bu bəzən 5-10 il çəkir. Daha sonra 3-cü mərhələ başlayır. Həkimlər artıq müalicəni tapa bilmir, 4-cü mərhələ artıq QİÇS olur. Təəssüflər olsun ki, xəstəliyin bu mərhələsində olan xəstələrin sağalma ehtimalı olmur.

**Tanınmış həkim Seyfəddin Əsədin sözlərinə görə, bu xəstəliyə yoluxmuş şəxslər nikaha girə bilər, o halda ki, xəstəliyin dərəcəsi aşağı olsun:** "Xəstəliyə yoluxmuş insanlar müayinədən keçir, müayinənin cavablarından sonra onun nikaha girə bilib-bilməməsi müəyyənləşir. Məsələn, şəxs əgər Hepatit B və ya C virusunun yüngül daşıyıcısı olarsa ona heç müalicə lazım gəlmir. Bu xəstələr mütləq şəkildə dispanserdə müayinə olur, xəstəliyin dərəcəsi aşkarlanır, daha sonra həkim rəy verir. Əgər müalicəyə ehtiyac yoxdursa, həkim rəy verir ki, təhlükəli bir şey yoxdur, xəstə öz normal həyatını yaşaya bilər".

Həkimlər dəfələrlə qeyd edirlər ki, QİÇS-ə yoluxma əsasən 3 yolla - cinsi yolla, qanla və anadan ötürülmə yolu ilə ola bilir. Bu səbəbdən virusa yoluxmuş hamilə qadınlar ciddi həkim nəzarəti altında olur. Əsasən yoluxmanın qarşısını almaq üçün doğuş qeysəriyyə kəsiyi ilə həyata keçirilir ki, uşağa virus düşməsin. Və ən vacib məsələ: xəstəliyə yoluxmuş ana övladına ana südü verməməlidir. Səhiyyə Nazirliyi bu məsələni nəzərə alaraq, QİÇS-li ananın sağlam dünyaya gətirdiyi uşağın qidalanması üçün dövlət onları 1 yaşına kimi süni qidalarla təmin edir.

Bir məsələni də vurğulayaq ki, ümumilikdə bu ilin 3 ayı ərzində Azərbaycanda 108 nəfərdə İİV-ə (QİÇS) yoluxma faktı aşkarlanıb. Məlumata görə, xəstəliyə yoluxanların 107-si (99%) Azərbaycan vətəndaşı, 1-i (1%) isə xarici vətəndaşdır.

❑ **Xalidə GƏRAY**

# Bankların problemli kredit fırıldağı

## Belə kreditlərin həcmi durmadan artır; ekspert səbəbləri və çıxış yolunu göstərdi...

**Azərbaycan bank sektorunu, dolayısı ilə iqtisadiyyatı iflic edən ən önəmli faktorlardan biri də problemli kreditlərdir ki, onların da həcmi durmadan artır. Mərkəzi Bankın rəsmi məlumatına görə, problemli kreditlərin həcmi 1 milyard 597 milyon manata çatıb. 2017-cı il başlayanda bu göstərici 1 milyard 314 milyon manat olub.**




Deməli, problemli kreditlərin həcmi rəsmi statistikada 283 milyon manat artıb. Belə kreditlərin ümumi kredit portfelində payı isə artıq 10 faizə yaxınlaşır. Bu da o deməkdir ki, hər təqdim edilən 100 manatlıq kreditin 10 manatı geri qayıtmır. Bu isə bank sektoru üçün kifayət qədər ciddi rəqəmdir.

"Moody's" beynəlxalq reytinq agentliyi hesab edir ki, Azərbaycan banklarında bu, kredit portfelinin 20 faizini təşkil edir. Mərkəzi Bankın məlumatında isə problemli kreditlər 7,4 faizdir.

Bəs geri dönüşü olmayan kreditlərin həcminin artması əhalinin maddi durumunun daha da pisləşməsi demək deyilmi? Digər tərəfdən, bankların hələ də soyğunçu siyasətlərindən əl çəkməməsinin, yüksək faizlər hesablamaqda davam etməsinin səbəbi nədir? Hökumət bu istiqamətdə niyə həlledici addım atmır? Reallıq və statistika: fərq nə qədərdir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov bildirdi ki, açıqlanan rəsmi statistika hələ həqiqəti əks etdirmir, problemli kreditlərin real həcmi bu rəqəmlərdən bir neçə dəfə çoxdur:** "Beynəlxalq reytinq agentlikləri də bu fikirdədir. Sadəcə banklar həqiqi rəqəmləri gizlədir. Niyə? Ona görə ki, əvvəla, problemli kreditlər üzrə banklar ehtiyat yaratmalıdır, bəzən hətta kreditin 100%-i həcmində. Bu isə artıq xərcdir və bankın kapitalını "yeyir". Yəni problemli krediti çox olan bank qanunvericiliyi və prudensial normativlərin tələblərini pozmuş olur. Buna görə Maliyyə Bazarlarına Nəzarət Palatası həmin bankı cəzalandıra, hətta lisenziyasını geri ala bilər. Odur ki, guya normativ tələblərə riayət edirlər kimi görünmək üçün rəqəmləri azaldırlar. Digər səbəb isə reklamdır. Problemli krediti çox olan bank etimad doğurmur, müştəriləri qaçırdır. Bu, o deməkdir ki, bank müştərilərinin vəsaitini düzgün idarə edə bilmir, çox riskli yerləşdirirlər. Belə banka kim etibar edib pulunu ora qoyar ki? Həmçinin ona görə də həcmi az göstərirlər".

**Problemli kreditlər niyə artır? Ə.Həsənovun fikrincə, bu formal rəqəmlər onu göstərir ki, həqiqi göstəricilər də artmaqda davam edir deyə, artım tempini açıqlamağa məcburdurlar:** "Problemli kreditlərin artmasının birinci səbəbi odur ki, müflisləşən sadə vətəndaşlar, sahibkarlar və şirkətlərin sayı artır. Bunun səbəbi isə iqtisadi böhrandır. Digər tərəfdən, ödəniş qabiliyyəti olanların da çoxu artıq banklara ödənişlərini dayandırır, çünki banklar güzəştlər tətbiq etmir - xüsusilə dollar kreditləri üzrə. Halbuki Konstitusiya Məhkəməsi bunu onlara tapşırmışdı. Borclular başa düşür ki, bu gedişlə əbədi olaraq bankın borclusu olacaqlar, çünki manatın məzənnəsinə etibar yoxdur. Həmçinin banklar borcunu ödəməyənlərə və ödəyənlərə fərqli münasibət göstərir. Ödəməyənlərə bəzən ciddi güzəştlər edirlər ki, borcun filan qədərini bağışlayırıq, heç olmasa filan qədərini ödə, krediti bağlayaq. Amma ödəyənlərə güzəşt etmirlər ki, pulu var ödəyir, qoy ödəsin. Hətta onları artıq faiz və cərimə ilə də yükləyirlər. Təbii, belə vəziyyətdə ödəyənlər də ödənişləri dayandırır. Real vəziyyət indi belədir ki, ağır durumda olan bank sahibləri və inzibatçıları bankların bağlanacağı ilə barışıblar. Sadəcə, prosesi uzadırlar ki, banklardan mümkün qədər çox vəsait çıxara bilsinlər".

**Ekspertin fikrincə, bank rəhbərləri bankların bağlanacağı fikri ilə barışıb, buna görə də onları bankın ümumi vəziyyəti az maraqlandırır:** "Yəni sistemli şəkildə düşünmürlər ki, necə edək ki, mümkün qədər çox borclu uzunmüddətli olsa da ödənişləri etməyə başlasın. Güzəştlər sistemi tətbiq etməyə, şəffaf olmağa çalışmırlar. Sadəcə, öz yaxınlarının və öz şirkətlərinin adına olan kreditlərin ödənişindən yayınmağa, digərlərini hədə-qorxu, zor və sair üsullarla məcburi ödəniş etdirməyə çalışırlar ki, sonda daha çox vəsait qoparıb aradan çıxsınlar. Təbii ki, haqqını bilən və müqavimət göstərən borcludan dərhal əl çəkirlər. Savadı olmayan, zəif, qorxan borcluların üstünə gedirlər. Kredit götürənlərin intihar etməsinin də əsas səbəbi budur. Məqsəd çox bəsitdir: bacardığım qədər artıq pul qopardım, bank batırsa qoy batsın".

**İqtisadçı deyir ki, belə şəraitdə hökumət sərt addımlar atmalıdır:** "Qanunvericiliyə edilmiş son dəyişikliklər ümumən məhz buna yönəlib. Amma bu dəyişikliklər Palata tərəfindən çox bərbad və savadsız hazırlandığı üçün tətbiqi çox çətin olacaq. Digər tərəfdən, elə bu dəyişikliklərin bəziləri korrupsiya üçün şərait yaradır. Palataya fövqəladə səlahiyyətlər verilir, amma adekvat nəzarət mexanizmi yoxdur. Həm də Palatanın hazırladığı bu dəyişikliklər orada savadlı kadr problemi olduğundan xəbər verir. Savadsız adamın amalı düz olsa belə, əməli baş tutmayacaq. Amma amalın özünün də saflığı şübhəlidir. Çünki Palata rəhbərliyinin banklarla sıx bağlılığı var və bu da real sərt addımlar atılacağını şübhə altına qoyur".

**Bəs nə etmək lazımdır? Əkrəm Həsənov diqqətə çatdırdı ki, ilk növbədə bütün banklarda yoxlama aparıb saxta kreditlər yolu ilə mənimsənilmiş vəsaitlərin qaytarılmasına nail olmaq lazımdır:** "Daha sonra müflisləşmə haqqında qanunvericiliyi təkmilləşdirərək ödəniş qabiliyyətini itirmiş vətəndaşların özlərini müflis elan etməsi üçün şərait yaratmağa ehtiyac var. Ödəniş qabiliyyəti olan borclulara isə adekvat güzəştlər tətbiq etmək lazımdır. Dəfələrlə mən də, digər ekspertlər də maliyyə ombudsmanı institutunun yaradılmasını təklif etmişik ki, bu problemlərin şəffaf və ədalətli həllinə nail olunsun".

❑ **Nərgiz LİFTİYEVA**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;
- Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və spermada qan;
- Spermanın azalması, itməsi;
- Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;
- Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;
- Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;
- Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, (050) 213-88-05 nömrəsinə, d-r Vaiz Səmədova zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



# Bakıda dəhşət: keçmiş məhkum polislərin üzərinə kimyəvi məhlul atıb, sonra özü içib öldü

**Bakıda keçmiş məhkum polis əməkdaşlarının üzərinə kimyəvi məhlul atıb. Yasamal Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Azərbaycan prospektində qeydə alınıb. Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Elxan İbrahimov və tanışı, Abşeron sakini Nailə Sadıqova arasında mübahisə düşüb.**

Bu zaman N. Sadıqova həmin ərazidə xidmət aparan Yasamal Rayon Mühafizə İdarəsinin əməkdaşlarını köməyə çağırıb. Polis əməkdaşları E.İbrahimovu intizama dəvət etmək istəyib. Bu zaman E.İbrahimov əlindəki şüşə qabda olan kimyəvi məhlulu iki polis əməkdaşının və N.Sadıqovanın üzərinə atıb. E. İbrahimov daha sonra qalan məhlulu içib.

Onlar dərhal xəstəxanaya yerləşdiriblər. E.İbrahimov orada dünyasını dəyişib.

Polis əməkdaşlarından birinin vəziyyəti orta ağırdır, digərinə və N.Sadıqovaya tibbi yardım göstərildikdən sonra buraxılıblar.

Rayon prokurorluğunda araşdırma aparılır.

**Elan**

**Şərifov Alxan Qaraxan oğlunun adına olan Nizami rayon, Mətləb Ağayev küçəsi 41, mənzil 2 ünvanının kupçası itdiyi üçün etibarsız sayılır.**

**Elan**

**Mərkəzdə, "Gənclik" metrosunun çıxışında kupçalı tam 3 otaqlı daş ev, 5/4 orta blok. Su, qaz, işıq daimi. Nərimanov prokurorluğunun həyətində öz evimdir, orta təmirli. Qiyməti razılaşma ilə. Maklerlər narahat etməsin.**

**Əlaqə telefonu: (070) 399-01-00; (050) 234-64-67**

YENİ MÜSAVAT
N 83 (6697) 21 aprel 2017




# Qəflətə düşməyin səbəbləri və nəticələri

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Rəcəb ayını yaşamaqdayıq. Allahdan istəyimiz budur ki, bizlərə bu ayın içərisində olan böyük imkan və fürsətlərdən lazımınca bəhrələnməyi lütf etsin.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Rəcəb ayı - nurani bir aydır. Xoş olsun o kəslərin halına ki, bu ayın içərisində olan oruc, dualar, zikrlər kimi nemətlərdən istifadə etmək səadəti var.

İnsanın həyatında ən ciddi problemlərdən biri qəflətlə bağlıdır. İnsan qəflət edən zaman bütün faciələr baş verir. Ümumən həyatımızda hər mənada bizlərə zərər vura biləcək ən böyük mövzu - elə məhz qəflətdir. İnsan qəflət edərkən ətrafında nə baş verdiyinə, harada olduğuna, haradan gəldiyinə, haraya getdiyinə, nə etdiyinə fikir vermir. Bizim ən böyük müsibətlərimiz qəflətdən başlayır. Qəflətin nümunələrindən biri də əziz Zəmanə Sahibinin (ə.f) varlığı ilə bağlı olan qəflətimizdir.

## Allaha mərifət - Zamanın İmamına (ə.f) mərifətdir

**Həzrət İmam Hüseyndən (ə) Allahı tanımaq, Allaha mərifətlə, onun necəliyi ilə bağlı soruşduqda, İmam Hüseyn (ə) buyurdu:** "Allahı tanımada qəsd budur ki, hər bir dövrdə yaşayan insanlar öz İmamlarını (ə) tanıyalar. O İmamı (ə) ki, ona itaət onlara vacibdir".

İmam Hüseyn (ə) Allahı tanımağın necəliyi ilə bağlı, Allaha mərifətin necə olması ilə bağlı sualın cavabında çox nurani və incə bir məqama toxunur. Bütün zamanlarda yaşayan insanların öz itaət etdikləri, itaət etməli olduqları İmamlarını (ə) tanıması - elə Allahı tanımadır. Çünki, Allahı tanımağın, Allaha mərifətin ən böyük təzahürü, ən böyük həqiqəti əslində Rəbbin Yer üzərində olan canişinini, xəlifəsini tanımaqdır və Allahı tanımağa aparan ən düzgün, ən gözəl yol əslində zamanın İmamını (ə) tanımaqdan keçir. Ona görə də İmam Hüseyn (ə) Allaha mərifət və Allaha mərifətin necəliyi ilə bağlı sualın cavabında buyurur ki, hər zamanda yaşayan insanların öz itaət etməli olduqları İmamı (ə) tanıması, elə Allahı tanımasıdır.

Bu mənada, istər tövhid baxımından, Allahı tanımaq baxımında, istər ümumiyyətlə nə etmək baxımından Zəmanə Sahibini (ə) tanımaq fövqəl dərəcədə önəmli məsələdir. Biz unutmamalıyıq, bundan qəflət etməməliyik ki, bizim bir İmamımız (ə), hər mənada mənəvi böyüyümüz, Yerlə göyün vasitəçiliyini həyata keçirən bir İlahi höccət var. Təəssüflər olsun ki, bizlər bir çox məsələlərdə qəflət etdiyimiz kimi, bu mövzuda da qəflət edirik, sonra da faciələr yaşayırıq.

## Zəmanə Sahibinin (ə.f) hüzurundan qəflətə səbəb olan ən ciddi amil - həvayi-nəfsdir

Əxlaq ustadları əziz Mövlanın (ə.f) varlığından qəflət etmənin səbəblərini açıqlayır. Bunlardan biri və çox önəmlisi - həvayi-nəfspərəstlikdir. Allah etməsin, əgər biz həvayi-nəfspərəst olsaq, əgər həvayi-nəfsimizin quluna çevrilsək, həvayi-nəfsimiz nə istəsə onun ardınca getsək, böyük ehtimalla biz Zəmanə Sahibindən (ə.f) qəflət edəcəyik. Əgər biz həvayi-nəfsimizə pərəstiş etsək, böyük ehtimalla qəflət xəstəliyinə tutulacağıq.

Hər bir insanın nəfsinin, instinktlərinin istəkləri var, daxili meyillərinin istəkləri var. Bundan daha təbii bir məsələ yoxdur. Amma, o zaman ki, biz bu istəkləri şüur, ağıl, dərk, seçim, iradə, düzgün qərar vermə, mənəvi filtrdən, rasionallıq işığından keçirmirik, bu istək sadəcə olduğuna görə onun təmininə tərəf gedirik, nəfsimizin istəyinə görə onu həyata keçiririk - bu halda biz həvayi-nəfsimizin xidmətçisinə çevrilirik. Bu davamlı olanda, həvayi-nəfsimizi pərəstişkarına çevrilirik. Bunu da Rəbbimiz Qurani-Kərimdə "Furqan" surəsinin 43-cü ayəsində gözəl bir şəkildə bəyan edir və əziz Rəsulallaha (ə) bu cür insanların hidayət potensialının çox aşağı olması bəyan olunur. Ayədə buyurulur: "Nəfsi istəklərini öz tanrısı etmiş (ağıl, fitrət və millətlərin qəbul etdiyi Allahı öz nəfsi istəklərinə uyğun gələn həddə aşağı endirən) kəsi gördünmü? Yoxsa sən onun (doğru yola gəlməsi və ya axirət əzabından qorunması) işlərini düzəldəcəksən?!".

Rəbbimiz bir tərəfdən əziz Rəsulallaha (s) təsəlli verir, Onun çatdırışlarını eşitməyən insanlara görə Peyğəmbəri (s) narahat olmamağa çağırır. Bəyan edir ki, o insanlar öz həvayi-nəfslərini öz tanrısına çevirib, onların eşidəcək durumları yoxdur. Eyni zamanda Rəbbimiz çatdırır ki, onların hidayət imkanları yoxdur. Həvayi-nəfsə pərəstiş insanı qəflətə, imansızlığa, küfrə gətirən ən ciddi amillərdəndir. İnsan Allahdan başqa hər nəyə pərəstiş etsə, bu, həvayi-nəfsin məhsuludur.

## Zəmanə Sahibinin (ə.f) mövcudiyyətindən qəflətə nələr səbəb olur?

Bizim Zəmanə Sahibinin (ə.f) varlığından qəflətə gəlib çıxmamıza səbəb olan ikinci amil - günah və məsiyətdir. Əgər günah etmək bizim üçün adiləşsə, bizim üçün təbii bir hala gəlib çatsa, günah bizim həyatımızın tərkib hissəsinə çevrilsə, Allaha itaətsizlik həyatımızın təbii mövzusuna çevrilsə - nəticədə biz qəflətdə olacağıq və Mövlanın (ə.f) varlığından, onun mövcudiyyətindən qəflət edəcəyik. Deməli, günah və büdrəmələr də insanı qəflətə aparar.

Qəflətin üçüncü ciddi səbəbi - dünyapərəstlikdir. Biz əgər dünyaya vurğun olsaq, dünyapərəst olsaq, dünyanı vasitə deyil, sınaq meydançası deyil, dünyanı aqibət üçün bir tarla deyil, özümüz üçün əsas hədəf bilsək - bu halda da böyük ehtimalla qəflətə gəlib çıxacayıq və Zəmanə Sahibinin (ə.f) varlığından qəflət edəcəyik.

Bizi qəflətə aparan dördüncü önəmli səbəb - əxlaqi fəsadlardır. Biz öz əxlaqımıza, davranışlarımıza, hərəkətlərimizə nisbətdə diqqətli olmalıyıq. Əxlaq - həyatımızın zəruri bir mövzusudur. Bir var vaciblər, bir var haramlar. Bir də var ki, insan Allahın bəyəndiyi kimi davrana, Allah bəyəndiyi fəzilətlərə sahib çıxa, Allah bəyənmədiyi rəzilətlərdən isə uzaq ola. Əxlaq ciddi mövzudur. Deməli əxlaqi fəsadlar - insanın yalan danışması, qeybət, sui-zənn, şər atmaq, məsxərə və s. də insanı Zəmanə Sahibinin (ə.f) mövcudluğundan qəflətə gətirib çıxarar.

Beşinci mühüm nöqtə - günahkarlarla oturub-durmaqdır. Biz gərək kimlərlə oturub-durduğumuza diqqət edək. Bu, mütləqdir ki, insan olduğu mühitdən təsirlənir. Mühitdə baş verənlər, oturub-durduğu insanların davranış və rəftarları insana təsir edir. Kiminlə oturub-durduğumuza diqqət edək. Günahkarlarla oturub-durmaq nəticə etibarilə bizi qəflətə gətirib çıxardar.

Diqqət olunmasa, insanı Zəmanə Sahibinin (ə.f) mövcudiyyətindən qəflətə aparan altıncı mühüm amil - insanın İlahi rəhbəri və nümunəsinin olmamasıdır. Həyat belədir ki, biz nəticə etibarilə özümüz üçün əxlaqi nümunələr, kamil insanlar axtarışındayıq. İnsanın nümunələri əgər İlahi olmasa, mənəvi nümunə və rəhbəri olmasa - qəflətə düşməsi çox ciddi bir reallıqdır. Biz diqqətli olmalıyıq ki, nümunələrimizi doğru seçə bilək.

Bizləri Zəmanə Sahibinin (ə.f) varlığından qəflətə aparıb çıxaran yeddinci amil - bəsirətsizlik və dardüşüncəlilikdir. Yəni insanın anlaması, geniş baxması, məsələnin mahiyyətinə önəm verməsi olmasa, məğzini duymasa, düşüncələri çox dar olsa - bu da qəflətə düşməsinə səbəb olan amil olar.

## Zəmanə Sahibinə (ə.f) qəflətin səbəb olduğu fərdi fəsadlar

Əziz Mövlanın (ə.f) hüzurundan qəflət insana həm fərdi, həm ictimai yüklü mənfi təsirlər yaradar. Birinci mənfi təsiri budur ki, ümidsizlik yaradar. Əgər insan qəflət etsə ki, onun Zəmanə Sahibi (ə.f), İmamı (ə) var, yerlə göyü birləşdirən bir höccət var - bu zaman ümidsizləşər. Ümidsizlik də bütün bəlaların, müsibətlər, depressiyaların başıdır. İnsanların əksər hallarda fərdi tənəzzülü həm də ümidsizliklə bağlı olur.

Zəmanə Sahibinin (ə.f) hüzurundan qəflətin səbəb olduğu ikinci fəsad budur ki, insanın həyatında məna itər və puçluq yaranar. Deməli, insan zamanının İmamının (ə) hüzurundan qəflət etsə, həyatı mənasızlaşar, puçlaşar, əbəsləşər.

Üçüncü mühüm məsələ budur ki, insan özünün islahı ilə, özünü düzəltməklə məşğul olmaz. İnsan özünü düzəltməni, özünüislahı həyatı əhəmiyyətli məsələ bilməz. Əgər adam Mövlanın (ə.f) hüzurundan qəflət etsə, nəticəsi ağır olar. İnsan özünü düzəltməyə tərəf getməz, bu məsələ onun diqqətindən yayınar və nəticədə özünüislahla məşğul olmaz.

## Zəmanə Sahibinə (ə.f) qəflətin səbəb olduğu ictimai fəsadlar

Yuxarıda saydıqlarımız - Zəmanə Sahibinin (ə.f) mövcudluğundan qəflətin səbəb olduğu fərdi nəticələr idi. Bu qəflətin bir sıra ictimai mənfi təsirləri də var. O toplumlarda ki, Zəmanə Sahibinin (ə.f) mövcudiyyətindən qəflət edilər, bu ictimai fəsadlar meydana gələr. Toplumlarda fəsad artar, toplumlarda günah adiləşər, ictimada açıq-aşkar günahlar edilər. Digər tərəfdən, insanlar rahatlıqla zalımlara kömək edərlər, zalımlara kömək etmək adiləşər. Çox diqqət edilməli bir məsələdir.

İnsan yerlə göyün bağlantısının vasitəsi olan İlahi Höccətlə (ə) bağlı qəflət edərkən, bir tərəfdən toplumda günah adiləşir, digər tərəfdən insan rahatlıqla ədalətə tərəf deyil, zülmə tərəf yönəlir və zülmün köməkçilərinə çevrilir.

Bu qəflətin səbəb olduğu üçüncü ağrılı ictimai nəticə budur ki, insan rahatlıqla Həzrət Rəsulallahın (s) yaratdığı və qurduğu ideal, imanlı insan toplumundan uzaqlaşar. Həyatının standardı artıq həmin həyat tərzi olmaz.

## Böyüklərin Rəcəb ayı ilə bağlı buyurduqları

**Yekunda mübarək Rəcəb ayı ilə bağlı böyük alimlərin, ariflərin buyuruşlarına diqqət edək. Böyük ariflər (r.ə) buyururlar:** "Bu dualar ki, mübarək aylarda, günlərində var, xüsusən Rəcəb, Şəban və mübarək Ramazan ayında olan dualar - insanı ruhi cəhətdən o qədər gücləndirir ki, əgər bir kəs əhli olsa, elə insan üçün yol açır və nur saçır ki, bəşəri bu qaranlıqdan çıxarmaq və nura daxil etmək üçün gəlib".

**Yenə buyururlar:** "Bu üç ayda - Rəcəb, Şəban və mübarək Ramazan aylarında o insanlar üçün ki, bu bərəkətlərdən istifadə edə bilərlər, etmək halları var - çoxlu bərəkətlər var ki, Allah onlara nəsib edər. Əlbəttə, bunların hamısının başlanğıcı Məbəsdir və onun ardınca hamısı. Rəcəb ayında böyük Məbəs və Mövla Əli ibni Əbutalibin (ə) mövlududur və başqa İmamların (ə). Şəban ayında Həzrət Seyyidi-Şühədanın (ə), Həzrət Sahibəz-zəmanın (ə.f) mövlududur. Mübarək Ramazan ayında Quranın Peyğəmbərin (s) qəlbinə nazil olması var. Bu üç ayın şərafətini dillər, bəyanlar, əqllər, fikirlər çatdırmağa acizdilər. Onun bərəkətlərindən ən böyüyü dualardır ki, bu üçaylıqda onların oxunması tövsiyə olunub". Allahdan istəyimiz budur ki, bizlərə bütün bunlardan bəhrələnməyi nəsib etsin! Gözəl, ümid dolu aylardayıq. Bütün büdrəmələrimizdə Onun amanına sığınırıq. Bilirik ki, azın müqabilində çox əta edəndir, istəyənə də verəndir, istəməyənə də verəndir.

**Allahım, aqibətlərimizi xeyirli et!**

**Allahım, bizləri Zəmanə Sahibinin (ə.f) varlığından qəflətə düşməyə qoyma!**

**Allahım, bizlərə yalnız Sənə pərəstiş etməyi nəsib et!**

**Allahım, bizlərə həvayi-nəfsimizə pərəstişdən uzaq olmağı nəsib et! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 83 (6697) 21 aprel 2017


# Qatarda ilan üzə çıxdı, sərnişinləri düşürdülər




Avstraliyanın Kiama şəhərindən Sidneyə hərəkət edən sərnişin qatarında ilan aşkar olunub. Bu barədə lenta.ru saytı "The Sydney Morning Herald"a istinadən xəbər verir. İlanı oturacaqların altında aşkar ediblər. Bu fakta görə qatarı saxlamasalar da, sərnişinlərin yerini dəyişiblər. Vaqonda adam qalmayanda isə onu bağlayıblar. Sidney avtovağzalına gələndə mütəxəssis vaqona baxış keçirib və heyvanı tutub. Məlum olub ki, bu, Çildren cinsindən olan pitondur. Bu növün təmsilçiləri zəhərli deyil, bir metrə qədər uzanır və insanlar üçün heç bir təhlükə təşkil etmirlər. 13 apreldə isə Avstraliyada bir ilanı narkotik asılılıqdan xilas ediblər. Avstraliyada ilanın 170 növü mövcuddur.

# Facebook bu çılğınlığı da edəcək



"Facebook" bildirir ki, hazırda elə bir texnologiya üzərində çalışır ki, insanlar əllərə və nitqə ehtiyac olmadan, sadəcə, beyinləri ilə yaza biləcək və dəriləri ilə eşidə biləcəklər. Bildirilir ki, "səssiz danışıq" proqramı sayəsində dəqiqədə 100 söz yazmaq mümkün olacaq. Layihənin ilkin mərhələsində o tələb olunur ki, beyinə hər hansı cərrahi müdaxilə olmadan yeni texnologiya beyin dalğalarını tuta bilsin.

"Biz sizin fikirlərinizi təsadüfən deşifrə etməkdən bəhs etmirik" - layihənin rəhbəri Recina Duqan bildirib. Layihəyə görə, əllərə və nitqə ehtiyac olmadan insan öz fikirlərini kompüterdə birbaşa yaza biləcək. "Sizin çoxlu fikirləriniz var və siz onlardan, sadəcə, seçdiklərinizi paylaşırsınız", - Mark Zukerberq deyib.

Reci Dugan "Facebook" şirkəti tərəfindən "Buildinq 8" layihəsinə rəhbərlik etmək üçün dəvət edilib. Şirkət bildirir ki, bu ideyanın gerçəkləşdirilməsi üçün 60-dan çox alim üzərində çalışır.

Mark Zukerberq bildirir ki, bu texnologiyanın nəticəsində insanlar indikindən beş dəfə daha tez fikirlərini yaza biləcəklər.

Layihə nəinki beyinlə idarə olunan, eyni zamanda dəri vasitəsilə insanların eşidə biləcəyini hədəfləyir. Yəni insanla dəri vasitəsilə də kommunikasiya yarada biləcəklər. Şirkət bildirir ki, bu texnologiya sayəsində insanlar tək qulaqla deyil, eyni zamanda dəriləri ilə də eşidə biləcəklər. Bu layihə korların əlifbası ilə müqayisə edilir.

Bu texnologiya vasitəsilə beyinə hər hansı bir çip yerləşdirmədən beyin kompüteri idarə edəcək və fikirləri yaza biləcək. Layihə gerçəkləşdirilərsə, texnologiyanı hazırkı durumundan üst səviyyəyə götürəcək kəşf olacaq.



## 12 min dollarından keçdi ki, o qadına bənzəsin

Britaniyanın Bristol şəhər sakini plastik əməliyyatlara 10 min funt sterlinq(12 min dollar) xərcləyib. O, bu əməliyyatların sonucunda teleulduz Xloi Xana bənzəməyə çalışıb. 20 yaşlı Keris Qudvin sinə və dodaqlarının böyüdülməsi əməliyyatı keçirib. Cərrahla konsultasiya zamanı o, Xanın fotolarını nümunə olaraq götürmüşdü. O, saçlarını və kirpiklərini uzadıb ki, öz kumirinə daha çox bənzəsin. Britaniyalı qız transformasiyanı davam etdirməyi planlaşdırır. Rinoplastika, botoks və digər cərrahi müdaxilələr etməklə o, məqsədinə tam nail olmaq istəyir. Qudvin deyib ki, o, uşaqlığından etibarən özünə inamsızlıqdan əziyyət çəkib. Qıza hər zaman elə gəlib ki, onun dodaqları və bəzi cizgiləri bir qadın üçün yetərli deyil. İlk plastik əməliyyatdan sonra qadın plastik cərrahiyyədən asılı vəziyyətə düşüb və indi davamlı olaraq əməliyyatlara girməyi planlaşdırır: "Mənə çox xoş gəlir ki, qeyri-təbii görünürəm. Əsas odu ki, hamıdan fərqlənirəm".

## 200 kiloluq olması işinə yaradı - narkotiki qarın qatında gizlətdi

Florida ştatının yol polisi əməkdaşları 200 kilo çəkisi olan sərnişinin qarın qatları arasında 23 qram marixuana aşkarlayıb. Lenta.ru saytının xəbərinə görə, yoxlamaya sürücünün təhlükəsizlik kəmərini bağlamaması səbəb olub. Yol polisləri ancaq yol hərəkəti qaydalarını pozan sürücünü cəzalandırmağı planlaşdırırmışlar. Amma söhbət zamanı polislər 42 yaşlı sərnişin Kristofer Mitçel və 38 yaşlı sürücü Keytian Robertsin özünü şübhəli şəkildə əsəbi apardığını müşahidə edib. Bunun ardınca polis iti qızğın şəkildə maşına tərəf hücum çəkəndə isə daha dəqiq yoxlama aparılıb və Mitçelin qarın qatlarında marixuana, Robertsin üstündə isə kokain aşkarlanıb. Maşında həmçinin corabın içində gizlədilmiş 7 min dollar və silah tapılıb. Hər iki kişi həbs edilib.




**QOÇ** - Ötən üç günü müəyyən gərginliklə başa vursanız da, bu gündən etibarən vəziyyət xeyli dəyişəcək. Odur ki, nəticənin uğurlu olacağını nəzərə alıb təmkin göstərib fəal olun.

**BUĞA** - Bu qədər dözmüsünüz, bir az da səbr edin. Nəzərə alın ki, bu gözəl gün sizə böyük sürprizlər vəd edir. Amma ulduzlar daha çox fəaliyyətlə məşğul olmağınızı məsləhət görür.

**ƏKİZLƏR** - Ulduzların düzümü əsəbi situasiyalardan uzaq olmağınızı, əvəzində aktivliyi artırmağınızı tövsiyə edir. Axşama yaxın maddi durumunuz yaxşılaşmalıdır. Gərginliyə həvəs göstərməyin.

**XƏRÇƏNG** - Yeni tanışlarınız sayəsində bəzi problemləriniz həll oluna bilər. Sadəcə olaraq, bu işdə prosesləri lazımi istiqamətə özünüz yönəltməlisiniz. Ötən səhvlərinizi təkrarlamayın.

**ŞİR** - Bu təqvim sizin üçün əlamətdar olacaq. Ən azı maraqlı və sevindirici xəbərlər eşidəcəksiniz. Qonşu və qohumlarla mülayim davranın. Sevgi münasibətlərində də uğurlarınız gözlənilir.

**QIZ** - Əgər səhhətiniz gümrahdırsa, ixtiyarınızda olan bu gündə probleminiz olmayacaq. Yeni və böyük işlərə başlamaq üçün əlinizə fürsət düşəcək. Evinizə qonaq gələcəyi gözlənilir.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu ərəfəni dini ayinlərə həsr edəsiniz. Əgər vaxtınızın çoxunu İlahiyə dualar etməklə başa vursanız, bunun savabı daha çox olacaq. Sevindirici hadisələr də gözlənilir.

**ƏQRƏB** - Səmərəli vaxt yaşayacağınız ehtimal olunur. Xüsusən də sevgi münasibətlərində xoş duyğulara sahib olacaqsınız. Sizə kömək etmək istəyənlərə qarşı şübhələrinizi aradan qaldırın.

**OXATAN** - Maddi firavanlığa qovuşmaq haqqında düşünməkdənsə, iş prinsipində aktivliyinizi artırın. Saat 15-17 arası maraqlı hadisələrin şahidi olacaqsınız. Ailə üzvlərinizə qayğı göstərin.

**OĞLAQ** - Zəhmətinizə qiymət verilmirsə, əbəs yerə enerji itirməyə dəyməz. Ulduzlar özünüzə yer tapa bilmədiyinizdən xəbər verir. Yaxşı olar ki, fəaliyyəti istirahətlə kompensasiya edəsiniz.

**SUTÖKƏN** - Yeni əlaqələrdə kifayət qədər uğurlara nail olmaq üçün bir neçə şans qazanacaqsınız. Bu səbəbdən ünsiyyətdə olduğunuz adamlarla münasibətlərinizi dərinləşdirməyə çalışmalısınız.

**BALIQLAR** - Hər mənada xoş ərəfədir. Keçmişin ağrı-acısını da xatırlamasanız, daha füsunkar olar. Günün ikinci yarısında təzə xəbərlərin, sevindirici hadisələrin şahidi və iştirakçısı olacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 1 yaşına qədər körpələr üçün "Həyatda qalma" kursları



Amerikada yeni dəb yaranıb. Haber365.com saytının xəbərinə görə, 1 yaşına çatmamış körpələrə həyatlarının sonrakı mərhələsində sağ qalmaları üçün xüsusi üzgüçülük dərsləri keçilir. Özəl dərslərdə istifadə edilən texnika, suyun altında nəfəsi saxlaya bilmə, ayaqlardan istifadə və yardım gələnə qədər kürəyi üstə üzmə kimi vacib detallar öyrədilir. "Sinfin" dərslərini "Nyu York Times" qəzetinin fotoqrafı Set Casteel çəkib. Fotoqrafın şəkilləri gələn il kitab halında nəşr olunacaq. Harvey Barnettin üzgüçülük müəllimi olduğu kursa bu günə qədər 300 min nəfər körpə qatılıb. "Həyatda qalma" dərslərinə Amerikada hər gün daha çox valideyn müraciət edir.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.